# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Qarabağ möcüzəsi: dağlarında nə sərvətlər yatır?



15

№ 149 (7317)

21 avqust 2025-ci il.
Qiyməti 60 qəpik

# Gəncə inkişaf edir, Gəncə yenidən qurulur!




2

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhərində olublar**

# Görüşdən əvvəl dua



8

### Azərbaycanla razılaşma İranla dəmir yolu əlaqəsini açacaq - PAŞİNYAN



7

### Rusiya baş nazirinin müavini: "Moskva Zəngəzur dəhlizinin açılmasını dəstəkləyir"



10

### "Uşaqların oyun seçimləri onların psixologiyasına təsir edir"



10

### "Çin maşınları keyfiyyətsizdir" imici necə yaranıb?



16

### Kütləvi körpə qətlləri: Cəzasız cinayət halları artır



7

# Gəncə inkişaf edir, Gəncə yenidən qurulur!

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhərində olublar

***Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 20-də Gəncə şəhərində olublar. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya şəhərdə aparılan tikinti-quruculuq işləri barədə məlumat verdi.***

Bildirilib ki, III MDB Oyunlarına hazırlıq çərçivəsində Gəncə şəhərində bütün aidiyyəti qurumlar səfərbər olunub, genişmiqyaslı abadlıq-quruculuq, təmir-bərpa və tikinti işləri həyata keçirilir.

Gəncə Şəhər İcra Hakimiyyəti və "Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyi tərəfindən indiyədək 120-dən çox küçənin asfalt örtüyü yenilənib, əsaslı təmir işləri görülüb. Yenidənqurma işləri şəhərdəki bir neçə parkı da əhatə edib. Bütün bunlarla yanaşı, küçələrin işıqlandırılması, şəhərin müxtəlif yerlərində yeni yaşıllıqların salınması istiqamətində bir sıra işlər görülüb.

"Bakı Abadlıq Xidməti" MMC tərəfindən şəhərin 637 yaşayış və qeyri-yaşayış binasının fasadı təmir edilib, 1159 binanın dam örtüyü və 49 küçədə, prospektdə işıqlandırma sistemləri, 62 ünvanda fasad işıqlandırılması yenilənib, 24 fəvvarədə təmir və bərpa işləri görülüb, 27 min kvadratmetr sahədə piyada yolları bərpa edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 20-də Gəncə şəhər stadionunda aparılan tikinti işlərinin gedişi ilə tanış olublar. Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib.

Bildirilib ki, 1959-1963-cü illərdə inşa edilən Gəncə şəhər stadionu 1964-cü ildə istismara verilib. Son illərdə stadionun tamaşaçı tribunaları yararsız vəziyyətə düşdüyündən və texniki cəhətdən istismarı mümkün olmadığından bu idman qurğusunun fəaliyyəti qismən həyata keçirilirdi.












Prezident İlham Əliyevin 2023-cü ildə imzaladığı Sərəncama əsasən, Gəncə şəhər stadionunun yenidənqurma işlərinin layihələndirilməsi və həyata keçirilməsi üçün Prezidentin ehtiyat fondundan ilkin olaraq bir milyon manat ayrılıb. Ötən il aprelin 9-da dövlətimizin başçısı stadionun təməlini qoyub.

Qeyd edək ki, bu il sentyabrın 28-dən oktyabrın 8-dək Azərbaycan növbəti böyük idman yarışına - III MDB Oyunlarına ev sahibliyi edəcək. Bunun üçün bir neçə şəhər və rayon seçilsə də, MDB Oyunlarının açılış və bağlanış mərasimləri, həmçinin əsas oyunlar Gəncədə keçiriləcək. Bütün bunlar nəzərə alınaraq şəhər stadionunun tikintisində işlər sürətləndirilib. Stadionun ərazisində köməkçi məşq meydançaları və Futbol Akademiyası binası tikilib. Yeni layihəyə görə stadionun ərazisi genişləndirilərək 10,4 hektara çatdırılıb. Nəqliyyat vasitələrinin təhlükəsiz giriş-çıxışı və parklanması ilə birlikdə idman arenasının ümumi sahəsi 12 hektardan çoxdur.

UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa edilən stadionun tamaşaçı tutumu layihə üzrə 15 min 343 yerlikdir. Stadionda fiziki imkanları məhdud tamaşaçılar üçün müvafiq sayda oturacaqlar, media və VIP zonalar mövcud olacaq. Burada, həmçinin futbolçular üçün soyunub-geyinmə, konfrans, tibb, hakimlər, texniki heyət üçün otaqlar və digər zəruri sahələr də müasir səviyyədə qurulur. Stadionun daxilində bilet satışı, müxtəlif ictimai iaşə obyektləri, avtodayanacaqlar və nəzarət-buraxılış məntəqələri yaradılacaq. Stadion UEFA tələblərinə uyğun işıqlandırma, səs, yayım, internet, havalandırma, təhlükəsizlik və digər zəruri sistemlər ilə təchiz olunur. İdman qurğusunun ərazisində də geniş abadlıq və yaşıllaşdırma işləri həyata keçirilir.

Müxtəlif idman yarışlarının keçiriləcəyi Gəncə şəhər stadionunun inşası, ilk növbədə, uşaqlar və yeniyetmələr arasında futbola olan marağı daha da artıracaq, futbolla məşğul olmaq istəyənlərə geniş imkanlar yaradacaq. Bölgələrimizdə yeni idman komplekslərinin yaradılması, köhnələrinin əvəzinə müasir idman qurğularının inşası ümumilikdə ölkəmizdə idmanın kütləviliyini təmin etməklə yanaşı, gənc nəslin sağlam yetişməsi baxımından da böyük rol oynayır. Bu layihə, eyni zamanda, ölkəmizin III MDB Oyunlarının yüksək səviyyədə keçirilməsi üçün gördüyü işlərdən biridir.

Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhərində "Azerbazalt" MMC-nin bazalt məhsullarının istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak ediblər.

***Ardı Səh. 3***

# Gəncə inkişaf edir, Gəncə yenidən qurulur!

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhərində olublar

Əvvəli Səh. 2

"Azerbazalt" MMC-nin təsisçisi Rafət Əliyev dövlətimizin başçısına və birinci xanıma müəssisə haqqında məlumat verdi. Bildirildi ki, burada bazalt tozu və onun əsasında orqanik gübrə istehsalı həyata keçiriləcək. Layihə iki mərhələdə icra olunacaq. Birinci mərhələnin investisiya dəyəri 27 milyon manat təşkil edəcək.

İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu layihədə 30 faiz paya malikdir. Ümumi sahəsi 4 hektar olan zavodda ildə 360 min ton orqanik gübrənin istehsalı planlaşdırılır. İsveç və Türkiyə texnologiyaları əsasında qurulacaq müəssisədə əsas xammal kimi Göygöl rayonunun "Çaykənd" yatağından çıxarılan yüksəkkeyfiyyətli bazaltdan istifadə ediləcək. Layihənin birinci mərhələsində 200 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. Layihənin ikinci mərhələsində isə bazalt əsasında yüksək texnoloji innovativ məhsulların - bazalt lifi, 3D printer üçün xammal olan filamenin və digər sənaye materiallarının istehsalı həyata keçiriləcək.

Bu isə öz növbəsində layihəyə əlavə strateji dəyər verməklə yanaşı, müdafiə, tikinti və yüksək texnologiyalar sektorlarının müasir və davamlı məhsullarla təmin olunmasına töhfə verəcək. Layihənin ikinci mərhələsi çərçivəsində 300 nəfər işlə təmin olunacaq. Məhsullar həm daxili tələbatı ödəyəcək, həm də xarici bazarlara ixrac olunacaq.

Qeyd edək ki, xüsusilə yüksək texnoloji bazalt məhsullarına beynəlxalq bazarlarda böyük tələbat var. Bazalt mənşəli məhsullar kənd təsərrüfatı və sənaye sahələri üçün yüksək dəyərə malik, ekoloji cəhətdən təhlükəsiz və çoxfunksiyalı materiallardır. Vulkanik mənşəli və yüksək mineral tərkibli bazalt tozu torpağın qida balansını bərpa edir, strukturunu yaxşılaşdırır və məhsuldarlığı artırır, su hövzələrinin turşulaşmasının qarşısını alır. Bazalt liflərindən isə filtrasiya, səsboğucu, istilik buraxmayan, korroziyaya davamlı örtüklər, beton üçün qatqı və tikinti sahəsində istifadə olunan digər yüksək dayanıqlı materiallar istehsal edilir. Bu materiallar yüksək istilik müqaviməti, dayanıqlılığı və ekoloji təmizliyi ilə seçilir. Həmin xüsusiyyətlərinə görə bazalt lifləri aviasiya, raket texnikası, müdafiə və avtomobil sənayesi kimi yüksək texnoloji sahələrdə geniş istifadə olunur.












Bu müəssisənin yaradılması yerli resursların əlavə dəyərə çevrilməsi, ekoloji və dayanıqlı istehsal modeli ilə Azərbaycanın qeyri-neft sənayesinin inkişafına xidmət edəcək, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalını artıracaq. Müəssisədə xammal kimi yerli bazaltdan istifadə isə daxili təbii ehtiyatların səmərəli dəyərləndirilməsini təmin etməklə, istehsal zəncirini möhkəmləndirəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 20-də Gəncə Memorial Kompleksində görülən işlərlə tanış olublar. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına və birinci xanıma burada həyata keçirilən işlər barədə məlumat verib.

Qeyd edək ki, Gəncə Memorial Kompleksinin təməlini Prezident İlham Əliyev 2022-ci ilin yanvarında qoyub. 44 günlük Vətən müharibəsində Ermənistan ordusunun mülki əhaliyə qarşı törətdiyi cinayətləri özündə əks etdirəcək Kompleks raket zərbələrinə məruz qalmış yaşayış binalarının və keçmiş parkın yerl?şdiyi ərazidə yaradılır. Ümumi sahəsi 4 hektar təşkil edəcək Kompleksdə ikimərtəbəli muzey binası və sərgi zalı olacaq. Burada mülki əhaliyə qarşı törədilmiş cinayətlərlə bağlı ekspozisiya, həmçinin dağıdılmış binaların yerləri ziyarətçilərə nümayiş etdiriləcək. Kompleksdə, həmçinin konfrans zalı da yaradılacaq. Ərazidəki parkda yaşıllaşdırma işləri aparılacaq, 700-? yaxın ağac, 12 mindən çox dekorativ kol və güllər əkiləcək. Ermənistan ordusu tərəfindən atılmış raketin izini simvolizə edən spiralvari kraterin d?rinliyi 13 metrdir. Hazırda muzey binasının tikintisi ilə bağlı son tamamlanma, həmçinin ekspozisiyanın təşkili və ərazinin abadlaşdırılması işləri həyata keçirilir.

Qeyd edək ki, Azərbaycan müharibədən dərhal sonra sülh təşəbbüsləri ilə çıxış edib, sülh gündəliyinin reallaşması üçün ardıcıl iş aparıb və artıq sülh müqaviləsi tərəflər arasında paraflanıb. Buna baxmayaraq, xalqımıza qarşı törədilmiş müharibə cinayətlərinin unudulmaması, tariximizin gələcək nəsillərə çatdırılması baxımından bu cür komplekslər mühüm rola malikdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 20-də "Hacıkənd" İstirahət Kompleksinin tikintisi ilə tanış olublar. Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma görülən, həmçinin həyata keçiriləcək işlər barədə məlumat verib.

Bildirilib ki, Gəncə şəhərinin Hacıkənd qəsəbəsi və Göygöl rayonunun Bənövşəli kəndinin ərazisini əhatə edən Kompleksin ümumi sahəsi 23 hektara yaxındır.

Eyni vaxtda 452 qonağın qəbulu üçün nəzərdə tutulan Kompleks müxtəlif kateqoriyalı 133 nömrədən, 19 birmərtəbəli standart və 10 ikimərtəbəli VIP kottecdən ibarət olacaq. Füsunkar təbiət mənzərələri ilə zəngin bu məkanda milli və beynəlxalq mətbəxin ləziz təamlarının təqdim olunacağı restoran və kafelər fəaliyyət göstərəcək. Burada qonaqlara istirahətlə yanaşı, sağlamlıqlarını təmin etmək məqsədilə də zəruri şərait yaradılacaq. Onların qapalı hovuzda istirahət etməsi, ənənəvi SPA xidmətlərindən istifadəsi, müasir idman avadanlıqları ilə təchiz olunmuş fitnes zalından faydalanması nəzərdə tutulur.

Kompleksdə istirahətin daha əyləncəli keçməsi üçün karaoke, masaüstü oyunlar otağı və uşaqlar üçün unudulmaz anlar vəd edən rəngarəng xüsusi zonaların fəaliyyət göstərməsi planlaşdırılır. Ərazidə yerləşəcək futbol və basketbol meydançaları, yürüş zolaqları qonaqlara dağ mənzərələri fonunda fəal istirahət imkanı təqdim edəcək. Eyni zamanda, Kompleksdə işgüzar görüşlər, konfranslar və müxtəlif təyinatlı tədbirlərin təşkili üçün müasir texniki avadanlıqla təchiz ediləcək teatral üslubda 90 nəfərlik konfrans zalı yaradılacaq. Kompleks fəaliyyətə başladıqdan sonra burada ümumilikdə 300-ə yaxın iş yerinin açılması nəzərdə tutulur.

Qeyd edək ki, bu istirahət mərkəzinin istifadəyə verilməsi bölgədə turizm potensialının möhkəmləndirilməsinə, məşğulluğun səviyyəsinin artırılmasına, ümumilikdə sosial-iqtisadi inkişafa böyük töhfə verəcək. Beləliklə, Qafqaz dağlarının ətəyində, sıx meşələrlə əhatələnmiş "Hacıkənd" İstirahət Kompleksi qonaqlara təbiət qoynunda istirahət imkanları təqdim etməklə regionun turizm xəritəsində mühüm yer tutacaq.

# Yol inkişafdır, yol mədəniyyətdir!

## Dövlət başçısının Sərəncamları ilə avtomobil yollarının əsaslı təmiri yüksək səviyyədə davam etdirilir

***Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfərləri çərçivəsində bir sıra sosial və iqtisadi xarakterli obyektlərin açılışı davamlı xarakter daşıyır. Belə ki, xəstəxanalar, yeni yollar, xidmət mərkəzləri və s. istifadəyə verilir. Bölgələrdə yeni müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan düzgün istifadə mexanizmlərini də üzə çıxarır. Dövlət başçısının tapşırıq və göstərişlərinə əsasən, son illərdə ölkəmizdə yolların yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində də çox mühüm layihələr icra olunub. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir.***

Xatırladaq ki, bir müddət öncə Azərbaycan Prezident İlham Əliyevin "Quba rayonunun Bakı- Quba - Rusiya Federasiyası ilə dövlət sərhədi (137 km)-Çiçi-Səbətlər-Qənidərə-Sırt Çiçi-Təngəaltı avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" Sərəncamı da məhz ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlərin davamının göstəricisidir. Sərəncama əsasən, yeddi min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi (137 km)-Çiçi - Səbətlər - Qənidərə - Sırt Çiçi - Təngəaltı avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutacaqdır.

### DÖRD MİN NƏFƏR ƏHALİNİN YAŞADIĞI KƏNDLƏRİ BİRLƏŞDİRƏN AVTOMOBİL YOLLARI

Dövlət başçısının digər Sərəncamı isə "Qaraməryəm-İsmayıllı-Şəki magistralını Oğuz rayonunun Calut, Mollalı, Yemişanlı, Dəymədərə, Tərkeş və Dəymədağlı kəndləri ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında"dır. Sərəncama əsasən, Qaraməryəm-İsmayıllı-Şəki magistralını dörd min nəfər əhalinin yaşadığı Calut, Mollalı, Yemişanlı, Dəymədərə, Tərkeş və Dəymədağlı kəndləri ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Bu gün həqiqətən də, Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi isə insanların sosial rifahının yüksəlişinə xidmət göstərir. Dövlət başçısının göstəriş və tapşırıqları ilə reallaşan islahatlar bir daha təsdiqləyir ki, ölkəmizin gələcəyi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması sahəsində atılan addımlar insanların xoşbəxt gələcəyinin təminatına yönəldilib.



### NƏQLİYYAT SİSTEMİ TƏKMİLLƏŞDİRİLİR

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən son illərdə ölkəmizdə yolların yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub. Azərbaycanın regionlarında, paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin məlum Sərəncamı Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədi daşıyır. İctimai nəqliyyatın əhatə dairəsinin genişləndirilməsi və nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi (yeni avtomobil yollarının tikintisi, müxtəlif səviyyəli yol qovşaqlarının inşası, avtobus və velosiped zolaqlarının çəkilməsi), alternativ nəqliyyat həllərinin (velosiped və kiçik elektrik nəqliyyat vasitələri) təşviqi, piyada hərəkətinin təşviqi, ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin artırılması, yol hərəkəti təhlükəsizliyinin səviyyəsinin yüksəldilməsi kimi əhəmiyyətli məsələlər qeyd olunan Sənəddə əsas məqsəd olaraq qarşıya qoyulub.

Sərəncama əsasən, "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" Bakı şəhərinin Baş Planına (2020-2040) uyğun olaraq, Bakı şəhərinin və ətraf ərazilərin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsini, iqtisadi inkişafın sürətləndirilməsini və insanların həyat keyfiyyətinin artırılmasını hədəfləyir. Dövlət Proqramı əhaliyə keyfiyyətli nəqliyyat xidmətləri göstərilməsi, ərazinin perspektiv inkişafı nəzərə alınmaqla yol hərəkətinin bütün iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi, ümumi istifadədə olan nəqliyyat xidmətlərinin keyfiyyətinin, dayanıqlılığının və əlçatanlığının artırılması, həmçinin fərdi mobil nəqliyyat vasitələrinin, nəqliyyat və piyada infrastrukturundan istifadənin müasir tələblərə cavab verən səviyyədə təmin edilməsi və nəqliyyatda rəqəmsal texnologiyaların tətbiqi prinsipləri əsasında hazırlanmışdır. Məqsəd nəqliyyat sisteminin təkmilləşdirilməsi nəzərdə tutulan Bakı şəhərində və ətraf ərazilərdə dayanıqlı nəqliyyat sisteminin qurulması, sərnişin mobilliyinin keyfiyyətinin artırılması və yol-nəqliyyat hadisələrinin, habelə ekologiyaya dəyən ziyanın həcminin azaldılması üçün zəruri tədbirlər görülməsidir.



Sərəncamda qeyd olunduğu kimi, Dövlət Proqramı çərçivəsində nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, ümumi istifadədə olan nəqliyyat növləri üzrə vahid ödəniş sisteminin tətbiqi və inteqrasiyası, rəqəmsal texnologiyalardan istifadə və innovativ həllərin tətbiqi əsas təminedici amillər olaraq müəyyən edilmişdir. Dövlət Proqramının icrası Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsini, şəhərdaxili sıxlığın azaldılmasını və geniş nəqliyyat şəbəkəsinin qurulmasını təmin etməklə yanaşı, ictimai nəqliyyatdan istifadənin səmərəliliyini artıracaqdır. Son onilliklərdə iri şəhərlərin artan əhalisi və şəhərətrafı ərazilərdə məskunlaşanların çoxalması nəqliyyat sistemləri və mobilliklə bağlı yeni çağırışların ortaya çıxmasına səbəb olmuşdur.

### 20,8 MİN KM UZUNLUĞUNDA YENİ YOLLAR TİKİLİB

Qeyd edək ki, ölkədə son illər ərzində yol-nəqliyyat infrastrukturu sahəsində əhəmiyyətli islahatlar həyata keçirilmişdir. Şəhər ərazisindəki yol şəbəkəsinin təkmilləşdirilməsi, yeni yol kəsişmələrinin və körpülərin tikilməsi, həmçinin tıxacların azaldılması məqsədilə müxtəlif layihələr icra edilmişdir. Bakıdakı əsas magistral yollarda təmir və bərpa işləri, habelə yol infrastrukturunun müasirləşdirilməsi yollarda nəqliyyat vasitələrinin artan sayına paralel olaraq aparılmaqdadır. Son 21 ildə Azərbaycan Respublikasında yol infrastrukturunun inkişafı sahəsində əsas nailiyyətlərdən biri ümumilikdə 20,8 min km uzunluğunda (o cümlədən 6,6 min km respublika əhəmiyyətli, 11,6 min km yerli əhəmiyyətli və 2,6 min km isə Bakı şəhərində) yeni yolların tikilməsi, yenidən qurulması və təmir olunmasıdır. Bundan əlavə, ümumi istifadədə və Bakı şəhərində olan avtomobil yollarında ümumilikdə 335 ədəd körpü və yol ötürücüsü tikilmiş, 56 ədədi təmir edilmiş, 163 ədəd yeraltı və yerüstü piyada keçidi və 45 ədəd tunel tikilmişdir.

Eyni zamanda qeyd etmək lazımdır ki, işğaldan azad olunmuş ərazilərdə ümumi uzunluğu 3.4 min km təşkil edən 44 avtomobil yolu layihəsi icra edilir ki, onlardan ümumilikdə 0.3 min km (6 layihə tamamilə, 1 layihə isə qismən) tikilib başa çatdırılmışdır. Bakı şəhərində və ətraf ərazilərdə mobilliyin artırılması və nəqliyyat axınının daha səmərəli idarə olunması məqsədilə 4 parklanma zonası üzrə 18 min parklanma yeri yaradılmışdır. Görülmüş işlər nəqliyyat vasitələrinin nizamlı şəkildə parklanmasını təmin etməklə, yollarda nəqliyyat sıxlığının azalmasına, eyni zamanda piyadalar üçün daha təhlükəsiz və rahat mühitin formalaşmasına xidmət edir.

Bundan əlavə, beynəlxalq nəqliyyat əlaqələrinin təmin olunması üçün həyata keçirilən M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolu, M-2 Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi avtomobil yolu, 6 M-3 Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolu, Şəki-Oğuz-Qəbələ və Füzuli-Şuşa (Zəfər yolu) kimi avtomobil yolu layihələri yüksək keyfiyyətli və təhlükəsiz hərəkət imkanları təqdim etməklə, həm yerli, həm də beynəlxalq tranzit daşımalarının sürətini artırmağa və yükdaşımaların effektivliyini yüksəltməyə kömək etmişdir. Bakı şəhərində şəhərdaxili və şəhərətrafı sərnişin nəqliyyatını asanlaşdırmaq məqsədilə icra edilmiş Bakı dairəvi avtomobil yolu, Böyükşor-Pirşağı, Zığ-Hava Limanı, Hava Limanı-Mərdəkan-Zuğulba, Böyükşor şosesi, Mərdəkan şosesi, H.Əliyev prospekti, Babək prospekti və 8 Noyabr prospekti layihələri şəhər və ətraf ərazilər arasındakı əlaqələri sürətləndirərək nəqliyyat infrastrukturunun gücləndirilməsinə töhfə vermiş, sərnişinlərin rahat və təhlükəsiz hərəkətinə imkan yaratmışdır. Yol infrastrukturunun qorunması və normalara uyğun olaraq nəqliyyat vasitələrinin oxuna düşən yükə nəzarət məqsədilə magistral yollarda elektron tərəzilər quraşdırılmışdır.

2004-cü ildən başlayaraq, Azərbaycanda regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının həyata keçirilməsi nəticəsində ölkəmizin hər bir bölgəsində genişmiqyaslı quruculuq işləri aparılıb. Azərbaycan yeni inkişaf dövrünə qədəm qoyub. Cənab Prezidentin mütəmadi olaraq regionlara səfərləri, burada görülən işlərlə tanışlıq, eləcədə tapşırıq və göstərişlərin verməsi ölkəmizin simasının tamamilə dəyişməsinə səbəb olub.

Göründüyü kimi, həm sosial, həm infrastruktur sahələrində, insanların rifah halının yaxşılaşdırılması istiqamətində görülən işlər diqqəti çəkəndir. Azərbaycanın hər bir bölgəsində yeni, müasir tələblərə cavab verən infrastruktur yaradılır, elektrik stansiyaları tikilir, qaz və su kəmərləri çəkilir, yollar salınır. İnfrastrukturun yeniləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər eyni zamanda insanların rahatlığı, firavan yaşayışı üçün həyata keçirilən sosialyönümlü tədbirlərin mühüm tərkib hissəsidir.

***Zümrüd BAYRAMOVA***

# Əhəmiyyətsiz və mənasız Avropa Birliyi...

***Donald Trampın Ukraynadakı münaqişənin həllində Avropa İttifaqının hər hansı mühüm rol oynamasına icazə vermək niyyəti yoxdur. Bunun səbəbi Brüsselin böhranı qabaqcadan görə bilməməsi və ya onu dayandıra bilməməsidir - hətta sonradan, qarşıdurma artıq qızğın fazaya daxil olanda, avropalılar atəşə yalnız yanacaq əlavə etdilər. ABŞ prezidentinin Avropa İttifaqının hər hansı həlledici rol oynamasına icazə vermək niyyəti yoxdur.***



Rusiyada və Şərqi Avropada marksizm-leninizm süqutundan sonra ABŞ və Avropa İttifaqı Rusiyaya potensial tərəfdaş kimi yox, düşmən kimi baxıb. Yeltsin illəri SSRİ-nin, xüsusən də energetika sektorunun tüğyan edən iqtisadi iflası dövrü idi və səbəbsiz deyil, "azad dünyada" qarşısıalınmaz qazanc həvəsi və iqtisadi yırtıcılıq görən rusların ağzında acı dad buraxırdı.

## NATO: Boş vədlər

Əlavə edək ki, ABŞ dövlət katibi Beykerin 9 fevral 1990-cı ildə Qorbaçov və Şevardnadze qarşısında götürdüyü öhdəliklərin heç biri, təbii ki, şifahi olsa da, yerinə yetirilmədi. Üç dəfə o, həmsöhbətlərinə NATO-nun şərqə "bir qarış belə" genişlənməyəcəyini təkrarladı. Ertəsi gün, 10 fevral 1990-cı il, kansler Kol da Mixail Qorbaçova dedi: "Biz hesab edirik ki, NATO öz təsir dairəsini genişləndirməməlidir". Nə baş verdiyini hamımız bilirik. Eyni damarda daha çox sitatlar verilə bilərdi və hamısı faktlara zidd idi. Ruslar şifahi öhdəliklərin rəsmi müqavilədə qeyd olunmasını təkid etməməklə özlərini çox sadəlövh apardılar.

Rusiyada indi hesab edirlər ki, bütün bunlar dəhşətli diplomatik səhv imiş. Çünki Qərb dövlətləri zamanın dəyişdiyini və Rusiyanın tərəfdaşa çevrilib, rəqib olmaqdan əl çəkə biləcəyini heç vaxt başa düşməyiblər. Üstəlik, belə münasibət Rusiya hökumətini mühasirə və işğal qorxusu ilə yaşamağa vadar edən tarixin qoyub getdiyi psixoloji nəticələrin tam bilmədiyini nümayiş etdirdi. Bundan əlavə, Kuba raket böhranı zamanı ABŞ-ın reaksiyasını hamı xatırlayır. Qapısında müxalif hərbi ittifaqın görünməsi heç bir dövlətin xoşuna gəlmir.

Bundan əlavə, Amerika qeyri-hökumət təşkilatlarının Narıncı İnqilaba müdaxiləsi - Freedom House, Açıq Cəmiyyət İnstitutu və hətta ABŞ Beynəlxalq İnkişaf Agentliyi USAID (1961-ci ildə Kennedi tərəfindən yaradılmış, Tramp tərəfindən ləğv edilmiş) - Rusiya hökumətində bütün bunların (The Grand Chezins9717) təsvir etdiyi sxemə uyğun olması hissini gücləndirdi. Bu kitabda o, artıq yazıb: "Ancaq Ukrayna əsas məsələdir. Avropa İttifaqı və NATO-nun genişlənməsi prosesi davam edir".

2017-ci ildə Ukrayna ilə Avropa İttifaqı arasında bağlanmış Assosiasiya sazişi Moskvanın qorxularını təsdiqləyə bilərdi. Beləliklə, ABŞ və Aİ çox ehtiyatsız davrandılar, Rusiyanın güclə cavab verə biləcəyi ehtimalı barədə bir an belə düşünmədilər, belə ki, o zaman senator Co Bayden 2017-ci ildə verdiyi bəyanatda qorxusunu ifadə etdi. Əslində, 24 fevral 2022-ci ildə Avropa İttifaqının özündən çox uzaqda, Avropanın şərqində deyil, Ukraynada "xüsusi hərbi əməliyyat" başladı.

## Tramp AB-yə iqtidarsızlığını xatırladır

Üç ildən artıq davam edən qan və dağıntılardan sonra sülhü öz prezidentliyinin təməl daşına çevirən Donald Tramp hesab edir ki, Qərblə Rusiya arasında Ukraynaya dəstək üçün vəkil münaqişəsi minlərlə gəncin ölümündən başqa heç nəyə gətirib çıxarmayıb. Beləliklə, o, Putinlə birbaşa təmaslar vasitəsilə münaqişəni bitirməyə çalışır.

Alyaskada keçirilən son görüşün nəticələri hələ də bəlli deyil. Dəqiq olan odur ki, ABŞ prezidentinin Avropa İttifaqının hər hansı həlledici rol oynamasına icazə vermək niyyəti yoxdur. Münaqişənin qarşısını ala bilməyən, hətta onu qabaqcadan görə bilməyən sonuncular təşviş və həyəcan keçirirlər. Avropa İttifaqı ilk növbədə öz acizliyini nümayiş etdirir və Emmanuel Makronun ürəyincə əziz olan bədnam "Avropa suverenliyi"nin sadəcə təhlükəli xəyal, gülünc illüziya olduğunu praktiki olaraq göstərir. Yalnız suveren dövlətlər səmərəli fəaliyyət göstərə və beynəlxalq arenada nüfuzdan istifadə edə bilərlər. Necə ki, İtaliya xanım Meloni rəhbərliyi altında sübut edir. Sərhədlərin toxunulmazlığı ilə bağlı beynəlxalq hüquqi prinsipi xatırladan AB psevdo-dövlət Kosovonu dəstəkləmək əvəzinə Serbiyaya münasibətdə ona hörmətlə yanaşsa, daha çox etimada layiq olardı. Hər halda, Avropa İttifaqı faktiki olaraq onun iştirakı olmadan gedən diplomatik baletdə tamaşaçı roluna endirilib. Aİ-nin bəxti gətirib ki, istehza öldürmür. Amma bu, hakimiyyətin itirilməsinə gətirib çıxarır. Fransa prezidentinə gəlincə, o, daim çalışır ki, insanlar onun haqqında danışsınlar.

Papa Fransiskin dəfn mərasimində Müqəddəs Pyotr Bazilikasında baş verən alçaldıcı səhnə hər kəsin yadındadır, o zaman Fransa lideri Trampla Zelenski arasında müzakirəyə müdaxilə etməyə çalışır. Qapıdan atıldığı təqdirdə, əlbəttə ki, pəncərədən və ya kamindən qayıtmağa çalışacaq bir xarakter. Tarix xatırlayacaq ki, Ukrayna münaqişəsi faciəsində Avropa İttifaqı bəlkə də onu uzatmaqdan və odun üstünə yağ tökməkdən başqa heç nə etməyib. Buna baxmayaraq, XIV Lev-in xatırlatdığı kimi, "yorğun Ukraynanı ədalətli və davamlı sülh gözləyir". Amma Rusiyanın müəyyən tələbləri nəzərə alınmadan buna nail olmaq mümkün deyil.

***VƏLİ***

---

# "Bakı Moskva ilə gərginliyin artmasında maraqlı deyil"

**"Rusiya Silahlı Qüvvələrinin Odessada SOCAR-a məxsus yanacaqdoldurma məntəqəsini vurması Moskvanın Bakıya qarşı artan aqressiyasının növbəti ifadəsidir. Bu, təkcə sıradan bir hərbi əməliyyat deyil". Bu sözləri SİA-ya açıqlamasında politoloq Turan Rzayev deyib. Turan Rzayev sözlərinə belə davam edib: "Avqustun 8-də SOCAR-ın Odessa vilayətindəki neft bazasına hücumdan sonra yenidən eyni hədəfə zərbə endirilməsi prosesin təsadüfi olmadığını göstərir.**




Belə hücumlar təkcə texniki zərər məqsədi daşımır, eyni zamanda, siyasi və psixoloji mesaj da ötürülür. Rusiya bu mesajla bütün xarici aktorlara bildirir ki, Ukraynada fəaliyyət göstərmək heç bir halda tam təhlükəsiz deyil.

Eyni zamanda bu hücum informasiya müharibəsinin bir hissəsidir. SOCAR kimi beynəlxalq reputasiyaya malik şirkətlərin vurulması, Ukraynanın dünya ictimaiyyətinə təhlükəli sərmayə məkanı kimi təqdim edilməsinə xidmət edir. Bu yolla həm xarici investorlar çəkindirilməyə, həm də Qərbə və onun müttəfiqlərinə Ukraynanın sabitliyini qorumağın mənasız olduğu göstərilməyə çalışılır.

Təəssüf ki, bu hadisə təkcə Ukrayna müharibəsinin sərt mərhələyə keçməsi deyil, eyni zamanda Azərbaycan-Rusiya münasibətlərində diplomatik və geosiyasi dönüş nöqtəsinin başlanğıcı ola bilər. Xüsusilə Azərbaycanın əvvəlcədən verdiyi açıq xəbərdarlığa baxmayaraq SOCAR-ın obyektlərinə ikinci dəfə hücum edilməsi bu gedişin artıq ciddi mesaj daşıdığını göstərir. Bu, Kremlin Bakı ilə gərginliyi azaltmaq niyyətində olmadığını və əksinə, qarşıdurmanı dərinləşdirmək istədiyini ortaya qoyur.

Belə vəziyyətdə Azərbaycan daha konkret və Moskvada narahatlıq doğuracaq addımlar atmaq məcburiyyətində qala bilər. Mümkündür ki, Bakı artıq passiv neytrallıq mövqeyindən imtina edib, məhdud da olsa, hərbi-texniki əməkdaşlıq addımlarını nəzərdən keçirsin. Xatırladaq ki, SOCAR-ın ilk bazasına hücumdan sonra Azərbaycan Ukraynaya elektrik transformatorları və əlavə maliyyə yardımı göndərmişdi. Ancaq görünür, bu jest Rusiya üçün yetərincə ciddi siqnal olmayıb.



Buna görə də indi Azərbaycanın daha konkret addımları müzakirəyə çıxarması gündəmə gələ bilər - məsələn, hərbi texnologiyalara çıxış, pilotsuz uçuş aparatları və ya müdafiə avadanlığı ilə bağlı yardım imkanlarının nəzərdən keçirilməsi. Təbii ki, bu, dərhal cəbhəyə silah göndərilməsi anlamına gəlmir. Amma Bakı məsələnin rəsmi müzakirəyə çıxarılması, texniki əməkdaşlıq imkanlarının öyrənilməsi və ya Ukrayna ilə hərbi təlim-tədris formatında əlaqələrin qurulması yolu ilə ciddi siyasi siqnal verə bilər.

Bu yanaşma beynəlxalq ictimaiyyətə də aydın mesaj vermiş olacaq. Belə ki, Azərbaycan kimi uzun illərdir balans siyasətinə sadiq qalan bir ölkə Rusiya ilə münasibətlərində açıq dönüş nöqtəsinə gəlirsə, bu, Kremlin birtərəfli aqressiyasının artıq dözümsüz həddə çatdığını göstərir. Bu, xüsusilə Qərb ölkələri üçün ciddi xəbərdarlıqdır və Azərbaycanın geosiyasi çəkisini daha da artırır.

Bakı Moskva ilə gərginliyin artmasında maraqlı deyil. Ancaq Kremlin davamlı və məsuliyyətsiz davranışları qarşısında səssiz qalmaq da real görünmür. Azərbaycan nə müharibənin tərəfidir, nə də bu münaqişənin bir parçası olmağa can atır. Amma bu mərhələdə üzərinə düşən məsuliyyətin fərqindədir. Əgər Azərbaycan Rusiya qarşısında daha sərt mövqe sərgiləyirsə, bu, təkcə Bakının deyil, bütövlükdə regionun gələcək təhlükəsizliyi baxımından ciddi dönüş nöqtəsi ola bilər.

Xüsusilə Qazaxıstan və Özbəkistan kimi ölkələrin bu prosesi yaxından izlədiyini nəzərə alsaq, Azərbaycanın atdığı addımlar Cənubi Qafqaz və Mərkəzi Asiyada digər ölkələrə də ilham verər, onlarda da eyni mövqe sərgiləmək üçün siyasi iradə formalaşdırar".

***Ayşən Vəli***

# "İranın siyasi rəhbərliyi daxilində də vəziyyət birmənalı deyil"

**"Əvvəla, hazırda regionda vəziyyət heç olmadığı qədər gərgin və həssasdır. Baş verən proseslər - istənilən an ciddi müharibəyə çevrilmək təhlükəsi olan İran-İsrail münaqişəsi, Rusiya-Azərbaycan və Rusiya-Ermənistan münasibətlərinin yumşaq desək, yeni fərqli müstəviyə keçməsi, Suriyada vəziyyətin köklü şəkildə dəyişməsi və nəhayət, ən əsası da Vaşinqtonda baş tutan tarixi üçtərəfli görüşün nəticələri yeni siyasi reallıqlar yaratmışdır". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Əhməd N. Abbasbəyli deyib.**



O, sözlərinə belə davam edib: "Eyni zamanda onu da qeyd etmək lazımdır ki, İranın siyasi rəhbərliyi daxilində də vəziyyət birmənalı deyil. Hadisələrlə bağlı verilən bəyanatlar və ayrı-ayrı görəv sahiblərinin açıqlamaları orada fikir ayrılıqlarının, fərqli yanaşmaların olduğunu göstərir. İddia etmirəm ki, ciddi parçalanma və ya siyasi böhran var, amma fars şovinist və imperiya ambisiyalarından əl çəkməyən mühafizəkarlarla, İranın hazırkı Prezidenti Pezeşkianın rəhbərliyi altında reallıqları düzgün qiymətləndirən və proseslərə praqmatik yanaşan islahatçılar arasında fikir ayrılıqlarının olduğu aydın görünür.



Məsələn, ən son hadisələrdən biri - İranın rəhbəri Əli Xameneinin müşaviri Əli Əkbər Vilayəti Amerikada imzalanan üçtərəfli bəyannamə barədə danışarkən bildirmişdi ki, "İran Qafqazda qurulması planlanan 'amerikan dəhlizi'nin qarşısını alacaq", "sözügedən yol Trampın mülkiyyətində olan dəhlizə yox, Trampın muzdlularının məzarlığına çevriləcək. Tramp elə bilir ki, maklerdir və torpaq, bölgə icarəyə götürə bilər" və s. Bu fikirlər Pezeşkian və komandası ilə müqayisədə köhnə siyasətçilərin yanaşmasının təzahürüdür və onların regionda daim gərginlik və qarşıdurmanın qalmasında maraqlı olduqlarını göstərir. Həmçinin İran şovinizminin və fars nasizminin ideoloqlarından olan həmin siyasətçinin "sözügedən dəhliz gələcəkdə Ermənistanın parçalanmasına gətirib çıxaracaq" sözləri onun erməni maraqlarına xidmət etdiyini, öz çıxışlarında isə Ermənistanın ABŞ və Qərblə münasibətlərinə toxunmadan bütün baş verənlərdə Azərbaycanı hədəf aldığını açıq şəkildə göstərir.



Onu da qeyd etmək lazımdır ki, bu köhnə düşüncəli İran siyasətçilərini narahat edən təkcə Zəngəzur dəhlizi ilə bağlı məsələ deyil. Onların əsas narahatlığı iki dövlət arasında yumşalma, razılaşma və gələcəkdə mümkün sülh müqaviləsinin imzalanmasıdır. Çünki onlar üçün əvvəlki vəziyyət həm iqtisadi, həm də siyasi baxımdan daha sərfəli idi. Necə deyərlər, "bulanıq suda balıq tutmaq"la məşğul idilər.

Amma qeyd etdiyim kimi, İranın hazırkı Prezidenti həm bu qaragüruhdan, həm də sələflərindən ciddi şəkildə fərqlənir. Bu, onun siyasi baxışları - həm ölkədaxili, həm də xarici siyasətdə, xüsusilə də regionla bağlı mövqeyində özünü göstərir. O, ölkə daxilində siyasi yumşalmaların, xüsusilə milli azlıqların hüquqlarının təminatı, doğma dildən istifadə, təhsil və s. ilə bağlı açıq bəyanatları ilə yanaşı, region dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın, həmçinin Qərblə münasibətlərin yaxşılaşdırılmasının tərəfdarı kimi çıxış edir. Digər vacib amil isə onun Azərbaycan türkü olması və bununla fəxr etdiyini bəyan etməsidir. Bu, təkcə daxili siyasi məna daşımır, həm də region ölkələri üçün ciddi mesajdır.

Bu mövqeyin yalnız sözlərdə deyil, fəaliyyətdə də öz əksini tapdığını görmək olar. Belə ki, Pezeşkian prezident seçildikdən sonra ilk xarici səfərlərindən birini Bakıya etmiş və bu səfərin müsbət nəticələri Azərbaycan-İran münasibətlərində yeni mərhələnin əsasını qoymuşdur. Qarabağa etdiyi səfər və orada verdiyi mesajlar isə təkcə bizim marağımıza səbəb olmayıb, dünya ictimaiyyətinin, ilk növbədə isə Ermənistan tərəfinin diqqətini cəlb etmişdir. Bu, erməni mətbuatında da açıq görünür və Ermənistan tərəfinin artıq İrana ehtiyatla yanaşmağa, onu birmənalı şəkildə öz tərəfdaşı kimi görməkdən çəkinməyə başladığı hiss olunur.

Bu amillərin Yerevanda baş tutan danışıqlara da təsir göstərəcəyinə inanıram. Əlbəttə, nə qədər "özümüzünkü" hesab etsək də, Pezeşkian İran dövlətinin Prezidenti olaraq ilk növbədə dövlətinin maraqlarını qoruyacaq və maksimum dərəcədə İran üçün fayda təmin etməyə çalışacaq. Mətbuata sızan bəzi məlumatlara görə, Zəngəzur dəhlizindən - Tramp yolundan (TRİPP) gələn gəlirlərə İran və əlbəttə ki, Rusiya da iddialıdır. Yeri gəlmişkən, şübhə etmirəm ki, Alyaskada da bununla bağlı söhbət olub. İranın Rusiyanı bu oyuna cəlb etməsi və yeni gərginlik yaratmaq cəhdlərinin havada qalması da buna dəlalət edir. Həmin məlumatlara əsaslanaraq demək olar ki, bu yoldan əldə edilən gəlirlərin bölüşdürülməsində ABŞ (əsas payçı), Azərbaycan və Ermənistanla yanaşı Rusiya və İranın da iştirakı mümkündür. Əlbəttə, bunun müqabilində onların özlərinin təqdirəlayiq, anlayışlı və dözümlü davranış sərgiləmələri şərtdir.

Bir halda ki, Rusiyanın bu oyunlara cəlb edərək yeni təxribatlar törətmək cəhdləri uğursuzluqla nəticələnir, onun nə siyasi, nə iqtisadi, nə də hərbi potensialı kifayət edir, məşhur ifadə ilə desək, "dövlət təminatı" çatmır. Belə olan halda isə yeganə yol qalır: mövcud şəraitdən maksimum dərəcədə faydalanmaq".

***Ayşən Vəli***

# İxtisas seçimi başa çatdı: nəticələr ürəkaçan olmaya bilər

***2025/2026-cı tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi başa çatdı. Təhsil eksperti Ramin Nurəliyev ixtisas seçimi ilə bağlı təəssüratlarını bölüşüb. Onun sözlərinə görə bu qəbul ilində abituriyentlərin ixtisas seçimi bir neçə gərgin nüanslarla keçib:***





"İlkin olaraq deyə bilərəm ki, 1-ci ixtisas qrupunda vəziyyət çox yaxşı görünür. RK altqrupu olaraq blok imtahanında 100 balı keçən abituriyentlərdə balların təxminən 30-80 bal düşəcəyi gözlənilir. Azərbaycan və rus bölməsində plan yerlərinin artması və müsabiqə şərtlərini ödəmiş abituriyentlərin sayının keçən ilə nisbətən azlığı balların keçən ilə görə aşağı düşəcəyindən xəbər verir."

1-ci qrup RK altqrupunda dövlət sifarişli yerlərin çoxalması bu altqrupda pulsuz yerlərə qəbul imkanlarını özəl ali təhsil ocaqlarında belə artıracağını deyən ekspert bu altqrupda da balların ortalama 20-40 bal ətrafında düşəcəyini proqnozlaşdırır: "2-ci qrupda vəziyyəti orta olaraq qiymətləndirirəm. Həm Azərbaycan, həm də rus bölməsində plan yerlərinin artması xoş təəssüratlar formalaşdırsa da, dövlət sifarişli yerlərin sayında azalma bu ixtisasların ballarında artıma səbəb olacaq. Ümumi olaraq aşağı ballarda 10-15, dövlət sifarişli yerlərdə 20-50 bala kimi artma müşahidə olunacaq. Rus bölməsi 400+ dan ballarda düşmə görünür."

Ekspert deyir ki, 3-cu qrupda vəziyyət keçən ilə görə çox acınacaqlı görünür: "DT altqrupunda vəziyyət çox gərgin olacaq. Dövlət sifarişli yerlərin balı 30-50 bal artacaq, ümumi olaraq 20-60 bal artım ehtimal olunur. Hüquqda ciddi artım olmasa da, aşağı ixtisaslara doğru getdikcə ballar sürətli artaraq davam edəcək. 300 baldan aşağı ballarda ciddi həyəcan təbili müşahidə edirəm".

Ramin Nurəliyevin sözlərinə görə müsabiqə şərtlərini ödəmiş 24087 abituriyentdən 9000 nəfəri plan yerlərinə görə, təxminən 5000 nəfəri də səhv kodlaşdırıldığı üçün müsabiqədən kənarda qalacaq: "TC altqrupunda da vəziyyət ürəkaçan deyil, ballarda 20-50 arası qalxma müşahidə olunur. Beynəlxalq münasibətlər ixtisasında artım olacaq."

Eskpert 4-cu qrupda vəziyyətin çox pis olduğu qənaətindədir: "Tibb ixtisası üzrə ballar artacaq kimi görünür. Hardasa 625 ətrafında müşahidə olunur. Ümumi olaraq Azərbaycan və rus bölməsi üzrə 20-70 bala kimi qalxma müşahidə olunacaq."

***Lalə***

# “Ukraynanın təhlükəsizliyi əsas məsələ olaraq qalır”





“Tramp nədənsə Putinin nazı ilə hələ çox oynayır. Bunu Alyaska görüşünün açıqlanan nəticələri də göstərdi. Bu gün Amerikada keçirilən Zelenski-Tramp görüşünün nəticələri də bu qənaətə gəlməyə əsas verir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, Vaşinqtonda Zelenski və Avropa liderləri ilə həm ayrılıqda, həm də birlikdə keçirilən görüşlərin nəticələri barədə hələlik tam danışmaq tezdir. Amma verilən rəsmi məlumatlar və aparılan təhlillər bəzi ilkin qənaətlərə gəlməyə imkan verir. Ən mühüm nəticə budur ki, Ukraynanın təhlükəsizliyi və ərazi bütövlüyü bütün görüşlərdə əsas məsələ olaraq qalır: ”Bununla bağlı maraqlı tərəflərin - o cümlədən Ukraynanın - vahid qənaətə və razılaşmaya gəldiyini demək hələ tezdir.

Vaşinqtonda keçirilən son görüşdə Ukraynanın ərazi məsələsi birbaşa Zelenski ilə Putinin müzakirəsinə buraxılıb. Bu da doğru yanaşma kimi görünür, çünki Ukraynanın iştirakı və razılığı olmadan onun əraziləri ilə bağlı hər hansı bir qərar vermək və ya alver aparmaq mümkünsüzdür.

Digər tərəfdən, ikinci dəfə Vaşinqton görüşündə Tramp Ukraynanın təhlükəsizliyini Avropa ölkələrinə ”satdı”. Məlumata görə, ABŞ təhlükəsizliyə zəmanət versə də, maliyyə yükünü tamamilə Avropa ölkələrinin üzərinə qoyub. Avropa ölkələrinin 100 milyard avro ödəməsi müqabilində ABŞ bu təhlükəsizliyin təmin olunmasında iştirakçı olduğunu bəyan edib. Bundan əlavə, Ukrayna ilə ABŞ arasında 50 milyard avro dəyərində birgə dron istehsalı razılaşması əldə olunub və bu vəsait də Ukraynanın üzərinə düşür.

Ümumilikdə isə ABŞ və Avropa ölkələrinin Ukraynanın təhlükəsizliyi məsələsində birgə mövqe nümayiş etdirməsi bu görüşün əsas nəticəsi sayılır. Lakin bu zəmanətlərin Rusiya tərəfindən qəbul olunub-olunmayacağı hələlik bəlli deyil. Tramp Alyaska görüşündən sonra açıq şəkildə bildirdi ki, ABŞ Ukraynanın təhlükəsizliyi ilə maraqlana bilər, amma zəmanəti Çin və Rusiya müəyyən etməlidir. Bu isə kifayət qədər maksimalist və mübahisəli yanaşmadır.

Çünki Rusiya və Qərb Ukraynanın təhlükəsizliyinə fərqli yanaşır: Avropa bir sistem düşünür, Rusiya isə tamamilə başqa. Bu ziddiyyətin nə vaxt aradan qalxacağı məlum deyil. Əgər ABŞ görüşündən sonra Tramp, Zelenski və Putinin üçtərəfli görüşü baş tutarsa, bu, 18 avqust Vaşinqton görüşünün ən böyük nəticəsi ola bilər. Amma indiki şəraitdə Zelenski ilə Putinin bir masa arxasında oturması real görünmür. Əgər 22 avqustda və ya yaxın günlərdə belə bir görüş baş verərsə, bu, Vaşinqton danışıqlarının ən önəmli nailiyyəti olacaq”.

*Günel Fərzəliyeva*

# Azərbaycanla razılaşma İranla dəmir yolu əlaqəsini açacaq - PAŞİNYAN

Azərbaycanla razılaşma Ermənistanla İran arasında dəmir yolu əlaqəsini açacaq. SİA xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan bu gün İrəvanda İran Prezidenti Məsud Pezeşkianla birgə keçirdiyi brifinqdə deyib. Paşinyan bildirib ki, Ermənistanın Azərbaycanla əsas razılaşmalarından biri regionda kommunikasiya marşrutlarının bərpası ilə bağlıdır. ”Bununla, Ermənistan və İran arasında yeni dəmir yolu əlaqəsi yaranacaq, o cümlədən Naxçıvan-Culfa dəmir yolu xətti vasitəsilə...



Bu isə İranın Ermənistana və nəhayət, Qara dənizə dəmir yolu ilə çıxışını təmin edəcək”, - o qeyd edib.



Elçin Bayramlı

# Kütləvi körpə qətlləri: Cəzasız cinayət halları artır

***Azərbaycanda erkən yaşda qadınlar arasında abort sayı artıb. ”Azərbaycanda səhiyyə, sosial müdafiə və mənzil şəraiti” statistik məcmuəsinə görə, 2024-cü ildə ölkədə 78 245 abort qeydə alınıb. Onlardan 72-si 15-17 yaş, 2 751-i isə 15-19 yaş qrupuna aiddir.***

BMT-nin araşdırmalarına görə, hər il dünyada 55 milyondan çox qadın abort olunur. Onların 20 milyondan çoxu qeyri-leqal abortlardır ki, bu da ana ölümü hallarının artmasına səbəb olur.

Dünya üzrə hər 1000 qadına il ərzində 35 abort düşür. Bu sahədə ən aşağı göstərici Hollandiya, Belçika, Almaniya və İsveçrədədir- il ərzində 1000 qadına 10 abort. Ən yüksək göstəricilər Vyetnam, Rumıniya və Kubadadır- hər 1000 qadına il ərzində təxminən 80 abort.

Bir çox müsəlman ölkələrində (İran, Misir, Əfqanıstan, Türkiyə, BƏƏ, İraq, Suriya, Yəmən) abortla qanunla qadağandır. Yalnız Səhiyyə Nazirliyi mütəxəssislərinin rəyindən sonra və yalnız hamiləliyin 4-6 həftəsinədək aborta icazə verilə bilər.

Azərbaycanda isə qanunvericilik, abortları qadağan eləmir. Lakin, Cinayət Məcəlləsinin 116-cı maddəsinə görə, qadını abort etdirməyə məcbur eləmək cinayət məsuliyyəti yaradır.

Rəsmi məlumatlara görə, hər il ölkədə 80 min civarında abort əməliyyatı aparılır. Nəzərə alsaq ki, bizdə faktiki edilən abortların böyük hissəsi qeydiyyata alınmır, o zaman məlum olar ki, Azərbaycanda bu sahədə vəziyyət təsəvvür edildiyindən də ağırdır.

Abort əksər hallarda qadının öz arzusu ilə reallaşır. Amma deməliyəm ki, bəzən onları bu addıma ailədə məcbur edirlər. Hətta, bəzi hallarda qadınlar körpəsini dünyaya gətirmək istəyində olsa da, onu zorla aborta məcbur edirlər.

Abort etdirənlər arasında başqası ilə könüllü cinsi əlaqədə olan və ya zorlanan məktəbyaşlı qızların sayı getdikcə artır. Beləlləri, gənc oğlanlarla cinsi münasibətdə olurlar və hamilə qaldıqları məlum olanda ailələrindən xəbərsiz abort etdirirlər. Tanış həkimlər deyir ki, onlara hətta 14-15 yaşlı qızlar da müraciət ediblər abort üçün, bəziləri ildə 2-3 dəfə gəlir.

Burda sosial problemlərlə yanaşı, mənəvi psixoloji problemlər də mühüm roy oynayır. Şəxsən mən hesab edirəm ki, abortların arasında ən çoxu elə mənəvi səbəblərdən yaranan abortlardır ki, burda da cəmiyyətin əxlaqi dəyərlərinin getdikcə daha çox deqradasiya olduğunu görürük.

Müxtəlif beynəlxalq təşkilatların hesabatlarına görə, Azərbaycan dünyada ən çox selektiv abort baş verən ölkələrdən biridir. Son dövrdə oğlan uşaqlarının sayı sürətlə artır. 10 il əvvəl qızların oğlanlara nisbəti 49:50 idisə, indi 48:52-dir. Buna səbəb qız uşaqlarının doğulmamışdan əvvəl cinsinə görə abort etdirilməsidir.

Azərbaycanda qız uşaqlarının son illər daha çox abort etdirilməsinin səbəbi bu göstərilirdi ki, ölkədə ultrasəs müayinəsi son illərdə keçmiş dövrə nisbətən daha əlçatan olub. Lakin respublikamızda həkimlərə USM müayinəsi zamanı uşağın cinsiyyətini demək qadağan olunub, bu, yalnız abort edilmə vaxtı keçəndən sonra, doğuşa az qalmış mümkündür.

Buna baxmayaraq, selektiv abortların sayı azalmaq əvəzinə artır. Demək, valideynlər bunu öyrənməyin yolunu tapıblar. Ya rüşvət qarşısılığında həkimlər deyir, ya da hansısa yolla aydınlaşdırırlar.

Qeyd edək ki, təbii halda hər 100 qıza qarşı 105 oğlan doğulur. Amma bəzi ölkələrdə bu balans selektiv abortlarla oğlanların xeyrinə dəyişdirilir. Hazırda hər 100 qıza qarşı Azərbaycanda isə 115 oğlan doğulması düşür.

Bu göstərici artıq SOS siqnalıdır. Buna görə də, abort faktiki qətl hesab olunmalı, buna görə ağır cəza tətbiq edilməlidir. Əks halda, yaxın gələcəkdə cox ciddi demoqrafik problemlərlə qarşılacağıq.

Abortun qadağan edilməsi insan hüquqlarına zidd deyil, tam əksinə- bu, insan hüquqlarını qorumaqdır, elm təsdiq edib ki, doğulmamış körpə hələ 1 aylığından sonra insana xas əksər əlamətlərə malikdir. Faktiki olaraq, abort birbaşa qətl hadisəsidir, insan öldürməyə görə verilən cəzalar burada da tətbiq edilməlidir. Uşaq qatilləri ciddi cəzalandırılmalıdır, burada iştirak edən həkim də, digər ailə üzvləri də. Yalnız ciddi və ağır cəzalarla bu problemin qarşısını almaq mümkündür. Əks halda vəziyyət getdikcə pisləşəcək. Sağlam gələcək istəyiriksə bunu etməyə məcburuq.

BAXIŞ BUCAĞI

# Görüşdən əvvəl dua

ABŞ sülh danışıqları üçün əsas platformaya çevrilir. Avqust ayında görüş bolluğuna düşən Ağ Evdə bu dövlətin başçısı Donald Trampın iştirakı ilə Azərbaycan Preidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş baş tutdu. Tərəflər sülh müqaviləsi imzalamağa sadiqlik barədə sənəd imzaladılar. Bu görüşdən bir gün əvvəl isə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında memorandum imzalandı, 32 il tətbiq olunan ədalətsiz "907"ci düzəliş birdəfəlik ləğv olundu. Bu hadisələrin kulminasiyası isə cənab İlham Əliyevlə Donald Tramp arasında keçən səmimi görüş oldu. Dövlətimizin başçısına Ağ Evin simvolik açarının təqdim olunması bütün suallara ən böyük və tutarlı cavab kimi tarixə yazıldı. İlham Əliyevlə Donald Tramp masanın eyni tərəfini bölüşdülər, liderlər bir-birinə ən səmimi, həm də ürəkdən gələn fikirlərini söylədilər. Bütün bunlar ABŞ-nin prezident səviyyəsində Azərbaycana verdiyi dəyər idi.

Ağ Evdə növbəti görüşün iştirakçılarından biri təbii ki, Tramp idi, amma qarşı tərəfdə sıra ilə düzülüb oturanlar Avropa İttifaqına üzv ölkələrin liderləri idi. Onların Trampdan umacaqları çox idi, həm də ABŞ liderinin bütün əmrlərinə müntəzir kimi görünürdülər. Azərbaycan Prezidenti İlham Əliyevin cəmi 7 gün əvvəl eyni masadakı yerində heç bir avropalı lider yox idi, onlar Trampın qarşı tərəfində səf tutmuşdular. Bütün bunlar, əslində kimin kim olduğunu üzə çıxarır. Əlbəttə, sözü bütöv olmayan, başqalarının maraqlarına xor baxan, əvəzində təkəbbürlü kimi görünməyə çalışanların aqibəti belə olmalı idi.





## Bir dəfə Ağ Evdə...

Avqustun 15-də Alyaskada Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Donald Tramp arasında qlobal ziddiyyətlərin həlli və Ukrayna böhranının nizamlanması məqsədi daşıyan sammit keçirilib. Forumdan bir neçə gün əvvəl Amerikadakı Pravoslav Kilsəsinin (APK) yepiskopu, Sitka və Alyaska arxiyepiskopu Aleksi Treyder "sülh və planlaşdırılan danışıqların uğurla başa çatması üçün xüsusi dua həftəsi"nin keçirilməsini elan edib. Amerika Pravoslav Kilsəsi 1970-ci ildə Rus Pravoslav Kilsəsindən avtokefaliya alıb. Bununla belə, bu gün RPK-dən başqa, onun müstəqil statusu yalnız Gürcü, Bolqar, Polşa pravoslav kilsələri, həmçinin Çexiya və Slovakiya Pravoslav Kilsəsi tərəfindən tanınır. Qalan yerli kilsələr hələ də RPK-nı Moskva Patriarxlığının bir hissəsi hesab edirlər.

Trampla danışıqlardan sonra Putin Alyaska arxiyepiskopu ilə görüşüb. Yepiskop prezidenti əmin etdi ki, o, hər il Rusiyaya səfər etməyə çalışır. "Mənim üçün, eləcə də keşişliyim üçün, seminaristlər üçün bu həmişə böyük hədiyyədir. Onlar hər dəfə Rusiyada özlərini tapanda deyirlər ki, biz özümüzü evdə tapmışıq", - Aleksi vurğulayıb və əlavə edib: "Rusiya bizə ən çox minnətdar olduğumuzu, ən qiymətli şeyi - pravoslav inancını verib".

Treyder 2022-ci ilin martında Alyaska Yeparxiyasının rəhbəri təyin edilib. O, 1965-ci ildə protestant ailəsində anadan olub və 1990-cı illərin ortalarında pravoslavlığı qəbul edib. O, uzun illər Athos dağında yunan monastırının sakini olub. 2019-cu ildə o, ABŞ-a qayıdıb və Bethesda yepiskopu, Bütün Amerika və Kanada Metropolitanının Vikarı seçilib. "Xüsusi dua həftəsi"nin elan edilməsi yəqin ki, arxiyepiskopun şəxsi təşəbbüsüdür. Kilsənin rəhbəri Bütün Amerika və Kanadanın Metropoliti Tixon Mollardın bu məsələ ilə bağlı açıqlamaları olmadığı kimi, RPK-nin rəsmi saytında belə mesajlar yox idi.

Prezidentlərin görüşü ərəfəsində Moskva və Bütün Rusiyanın patriarxı Kirill də dua oxuyub. Liturgiya Moskva patriarxal iqamətgahının Çisti Leyndəki ev kilsəsində qapalı formatda keçirilib. Patriarx Kirill möminlərə səslənib: "Rəbbin öz mərhəmətinə meyl etməsi, planetin iki ən güclü dövlətinin liderlərinin qarşılıqlı əlaqəsini asanlaşdırması, bu görüş nəticəsində silahlı qarşıdurma təhlükəsinin tamamilə aradan qaldırılması və Rusiya və ABŞ xalqları arasında münasibətlərin inkişaf etdirilməsi üçün səmimi dua ilə Rəbbə müraciət edək. Bu mühüm, deyərdim ki, böyük məqsədə - iki böyük nüvə dövləti arasında münasibətlərin əsaslı şəkildə dəyişdirilməsinə və planetimizdə rifahın və sülhün təmin edilməsinə yönəlmiş yeni tipli münasibətlərin qurulmasına nail olmaq üçün bu danışıqlarda iştirak etmək".

Qəribədir ki, Papa XIV Leo ABŞ və Rusiya prezidentlərinin görüşünə heç bir reaksiya verməyib. Düzdür, sammitdən əvvəl də ANSA agentliyinin danışıqlardan gözləntiləri ilə bağlı sualını cavablandırarkən o, "hər zaman atəşkəs, zorakılığa son və razılaşmaya ümid etdiyini" söyləyib. Eyni zamanda, pontifik Ukraynada baş verənlərdən narahatdır.

Bir müddət əvvəl Roma Papası Leo Ermənistanla Azərbaycan arasında əldə olunan razılaşmanı hərarətlə qarşılayıb. "Mən Ermənistan və Azərbaycanı birgə sülh sazişinin bağlanması münasibətilə təbrik edirəm. Ümid edirəm ki, bu hadisə Cənubi Qafqazda möhkəm və davamlı sülhə töhfə verəcək", - pontifik avqustun 10-da Vatikanın Müqəddəs Pyotr meydanında bazar günü xütbəsi zamanı deyib. Azərbaycan və Ermənistan liderlərinin sülh sammiti avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutub. ABŞ-ın vasitəçiliyi ilə hərbi qarşıdurmanın rədd edilməsinə dair bir bəyannamə imzalanıb.



İyulun sonunda Vatikan ilə Azərbaycan arasında memorandum imzalanıb. Dinlərarası dialoq sahəsində qarşılıqlı anlaşma haqqında sənədi Dövlət Komitəsinin sədri Ramin Məmmədov və Vatikanın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti, kardinal Corc Yakob Kuvakada imzalayıblar. Saziş dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi, tərəflər arasında qarşılıqlı anlaşma və tolerantlığın gücləndirilməsi məqsədilə təcrübə və məlumat mübadiləsini, habelə birgə tədbirlərin keçirilməsini nəzərdə tutur. Mətndə dini təhsil sahəsində əməkdaşlığın inkişafı da öz əksini tapıb. Aprelin əvvəlində isə Azərbaycan Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Roma Papa Qriqorian Universitetində "Azərbaycanda xristianlıq: tarix və müasirlik" adlı beynəlxalq konfrans keçirilib. Konfrans ərəfəsində IX Piy Böyük Xaç Cəngavəri ordeni Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarova təqdim edilib. 1847-ci ildə Papa IX Pius tərəfindən təsis edilmiş orden və onun ən yüksək dərəcəsi olan Böyük Xaç adətən ruhanilərin üzvü olmayan, lakin katolik kilsəsi ilə əlaqələrin möhkəmləndirilməsində fərqlənmiş şəxslərə verilir.

Vatikanın Azərbaycanla yaxınlaşması bir çox erməni mediası tərəfindən tənqid olunub. Erməni Apostol Kilsəsi (EAK) bəyanat yayıb. Müqəddəs Taxt-tacın hərəkətlərindən narazılıq EAK-ın öz ölkəsinin hökumət başçısı ilə qarşıdurması fonunda baş verib. Paşinyan mayın sonunda deyib ki, EAK rəhbəri katolikos II Qareginin qeyri-qanuni övladı var və buna görə də "insanlar və Tanrı arasında vasitəçi olmaq" hüququ yoxdur. Baş nazir həmçinin iddia edib ki, kilsə qanunlara zidd olan əmlak və mövqelərin vərəsəlik sistemini işləyib hazırlayıb. İyunun 10-da Paşinyan kilsə rəhbərinin yenidən seçilməsi üçün koordinasiya qrupunun yaradıldığını bəyan edib. İyunun sonunda isə Ermənistanda arxiyepiskoplar Baqrat Qalstanyan və Mikael Ajapaxyan həbs edilib. Onlar dövlət çevrilişinə cəhddə ittiham olunurlar.

2018-ci ildə siyasətçi baş nazir olduqdan dərhal sonra II Qareginlə Paşinyan arasında münasibətlər yaxşı getməyib. Açıq qarşıdurma 2020-ci ildə Ermənistanla Azərbaycan arasında 44 günlük müharibədən sonra başlayıb və nəticədə Qarabağda hərbi əməliyyatların dayandırılması üçün üçtərəfli (Rusiyanın iştirakı ilə) saziş imzalanıb. Azərbaycan Kəlbəcər, Ağdam və Laçın rayonlarına nəzarəti bərpa edib. Ermənistanın hər yerində Paşinyanın istefası tələbi ilə etirazlar başlayıb.

Erməni Apostol Kilsəsinin rəhbərliyinin mənəvi və inzibati iqamətgahı olan Eçmiədzin müstəqil respublika tarixində ilk dəfə olaraq bu çağırışlara qoşulub. 8 dekabr 2020-ci ildə II Qaregin rəsmi müraciətində "mümkün sarsıntıların, toqquşmaların və faciəvi nəticələrin qarşısını almaq" üçün baş nazirə istefa verməyi tövsiyə edib. 2023-cü ildə II Qaregin öz çağırışını təkrarlayıb və bunun qeyri-müəyyən olduğunu qeyd edib. 2024-cü il yanvarın ortalarında Paşinyan bəyan edib ki, ölkənin "yeni geosiyasi şəraitdə Ermənistanı daha rəqabətli və həyat qabiliyyətli edəcək" yeni Konstitusiyaya ehtiyacı var. Onun 2026-cı ildə hazır olacağı planlaşdırılır. Bu il parlament seçkiləri də nəzərdə tutulub və bu seçkilərdə hakim "Mülki Müqavilə" partiyası iştirak edəcək.

Vaşinqtonda Azərbaycan-Ermənistan sammiti keçirilən gün II Qaregin bir həftəlik səfərlə ABŞ-a gəlib. "ABŞ-da erməni kilsəsinin rəhbəri yeparxiyanın hakim yepiskopu, din xadimləri və EAK-ın xeyriyyəçiləri ilə görüşəcək", - Eçmiədzinin mətbuat xidməti məlumat yayıb. Bununla belə, müşahidəçilər katolikosların Yeni Dünyada müttəfiqlər axtarmağa qərar verdiyi versiyaları irəli sürdülər. Əvvəllər EAK üçün belə bir müttəfiq Moskva Patriarxlığı idi.

Rus Pravoslav Kilsəsi otuz ildən artıqdır ki, Bakıda Patriarx Kirill, II Qareqin və Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri Allahşükür Paşazadə ilə Moskvada üçtərəfli görüşlər keçirərək, Ermənistan və Azərbaycanın ruhani liderləri arasında Qarabağ problemi üzrə danışıqlarda vasitəçi kimi çıxış edib. Heç bir əhəmiyyətli nəticə əldə edilməyib. Kilsə səviyyəsində münasibətlərin soyuması Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının o vaxtkı rəhbəri, arxiyepiskop Aleksandrın (İşçenin) bu il mayın 20-də Prezident İlham Əliyevi "Azərbaycan ordusunun işğal olunmuş torpaqların azad edilməsində qələbəsi və Qarabağın ürəyi - qədim Şuşanın azad edilməsi" münasibətilə təbrik etməsindən sonra başlayıb. Patriarx Kirill Bakıda olub. Səfər cəmi iki gün davam edib və bu müddət ərzində Rus Pravoslav Kilsəsinin rəhbəri təkcə ölkə prezidenti ilə deyil, həm də Allahşükür Paşazadə ilə danışıqlar aparıb və bu, Ermənistanda qıcıq yaradıb. Yerli ekspertlər digər məsələlərlə yanaşı, Rus Pravoslav Kilsəsinin bəzi nümayəndələrinin uydurmasına görə, hazırda Azərbaycana məxsus olan ərazilərdə, o cümlədən Qarabağda qədim Alban kilsəsinin bərpasının zəruriliyi barədə bəyanatlarını xatırladıblar.

Yuxarıda adı çəkilən bütün xristian liderlər müxtəlif ölkələrdə yaşayır, müxtəlif dini təşkilatların maraqlarını güdürlər və əsasən fərqli şərtlərin diktə etdiyi kimi davranırlar. Amma əmin olan odur ki, onların hamısının əbədi bibliya həqiqətləri, o cümlədən bu həqiqətlərlə tanış olmasıdır: "Hər şeyin öz vaxtı və səma altında hər məqsədin vaxtı var: doğulmağın və ölməyin vaxtı; əkməyin və əkiləni qoparmağın öz vaxtı; öldürməyin, şəfa verməyin, gülməyin, yıxmağın, yıxılmağın, öz vaxtı var. Yasmaq üçün vaxt və rəqs etmək üçün vaxt, daşları atmaq və daş toplamaq üçün bir vaxt. qucaqlamaq üçün bir vaxt və qucaqlaşmaqdan imtina etmək üçün bir vaxt, axtarmaq üçün vaxt və itirmək üçün bir vaxt, saxlamaq üçün bir vaxt, atmaq üçün bir zaman, tikmək üçün bir vaxt, sükutu saxlamaq üçün bir vaxt və danışmaq üçün bir vaxt, sevmək üçün bir vaxt və nifrət etmək üçün bir vaxt, bir zaman müharibə və sülh vaxtıdır. Planet küləklərdə dəyişiklik hiss edir və bəlkə də bu küləklər tezliklə o qədər güclü olacaq ki, hətta ağır daşları belə hərəkət etdirə biləcəklər. Bəlkə də bu daşları toplamaq vaxtıdır.

## Köhnə dünya Trampı sələfinin izi ilə getməyə inandırır

Almaniyanın ZDF televiziyasının ikinci kanalı Ukrayna prezidenti Vladimir Zelenskinin və onu müşayiət edən Avropa liderlərinin, o cümlədən NATO-nun yeni rəhbəri Mark Ruttenin Vaşinqtona səfərindən sonra avqustun 18-də Ağ Evdə baş verən hadisələrə kansler Fridrix Merzin nöqteyi-nəzərini təqdim edib. Merz özü də onların iştirakçısı olub və onları necə qiymətləndirir.

Kanslerin sözlərinə görə, ABŞ nəinki Avropada yeni nizamın yaradılmasında iştirak etməyə, həm də öz hərəkətlərini avropalılarla əlaqələndirməyə hazırdır. Merzin sözlərinə görə, Köhnə Dünyada bu sərəncam ABŞ-ın avropalılarla müzakirə prosesində inkişaf etdirməyə və ya əlaqələndirici rol oynamağa hazır olduğu Ukrayna üçün təhlükəsizlik zəmanətlərinə əsaslanacaq. Görünən odur ki, müttəfiqlər təhlükəsizlik təminatlarının bir hissəsi kimi Ukrayna ordusunu gücləndirməyi və gələcək sülh sazişində onun sayı ilə bağlı məhdudiyyətlərdən qaçmağı planlaşdırır. Bu baxımdan xatırlatmaq yerinə düşər ki, oxşar təhlükəsizlik zəmanətləri haqqında saziş ötən il ABŞ və Ukrayna arasında artıq bağlanıb. Söhbət o vaxtkı prezident Cozef Bayden və Zelenskinin 2024-cü ilin iyununda İtaliyada G7 sammiti çərçivəsində imzaladıqları 10 illik təhlükəsizlik sazişindən gedir. Sənəd ABŞ-ın Kiyevə hərtərəfli yardımını nəzərdə tutur.

ABŞ-ın hazırkı prezidenti yorulmadan təkrar edir ki, Rusiya-Ukrayna münaqişəsi "Bayden müharibəsidir". Lakin onun ABŞ-ın Ukrayna üçün təhlükəsizlik zəmanətlərində iştirakı ilə bağlı bəyanatları, prinsipcə, Trampın sələfinin yolu ilə getməyə hazır olduğunu göstərir. Merz bunu dərhal başa düşüb və təsadüfi deyil ki, Trampın Vladimir Putinlə Ankoricdəki görüşünün nəticələrini qiymətləndirən müsahibəsində onun tonu çox balanslı və barışdırıcı göründü. Trampın avropalı tərəfdaşlarına çatdırdığı məlumatda Merz üçün əsas məsələ Rusiya liderinin sülh müqaviləsi bağlayarkən Ukrayna üçün Qərbin təhlükəsizlik zəmanətlərinə hazır olması olub.



Təbii ki, təhlükəsizlik probleminin avropalılar tərəfindən Şimali Atlantika Müqaviləsi 5-ci maddəsinin ruhunda şərh edilməsi diqqəti cəlb etməyə bilməz. Orada qeyd olunur ki, bir NATO üzvünə hücum hamıya edilən hücum kimi qiymətləndirilir. Əslində bu, Ukraynanı, belə demək mümkünsə, başqa sous altında NATO-ya sürükləməkdən başqa bir şey deyil. "Stern" jurnalına müsahibəsində kansler ABŞ prezidentinin Zelenskinin və Avropa ölkələri liderlərinin daim tələb etdiyi kimi, sülh müqaviləsi bağlanmazdan əvvəl ilkin atəşkəs zərurətindən bəhs etməməsinə belə etiraz etməyib. O zaman Merz başa düşürdü ki, Ukraynanın Rusiya üçün yenidən silahlanması ehtimalı ilə dolu olan bu tələbin yeni təqdimatı üçün vaxt hələ də yaranacaq. Və həqiqətən də bazar ertəsi Ağ Evdə keçirilən görüşdə Almaniya kansleri Ukrayna və Rusiya prezidentlərinin görüşündən əvvəl Rusiya və Ukrayna qoşunları arasında qarşıdurma xəttində ilkin atəşkəs tələb edib.

Aydındır ki, tutulma gözləyən Kreml Tramp və Zelenski arasında görüşün nəticələrini şərh edərkən yalnız sülh danışıqları aparan nümayəndə heyətlərinin səviyyəsinin mümkün artımından danışır. Yəni səviyyəni, məsələn, xarici işlər nazirinə və ya onun müavininə qaldırmaq olardı. Təbii ki, artıq daxili problemlər ona mane olmağa başladığını nəzərə alsaq, xarici siyasət arenasında sürətlə uğur qazanmağa çalışan Trampa bu cür yanaşma çətin ki, yaraşsın. Və təbii ki, bu, Avropa liderlərinə yaraşmayacaq, onlar bunu danışıqlardan kənara çıxmaq kimi qəbul edəcəklər. Təsadüfi deyil ki, Fransa prezidenti Emmanuel Makron artıq "gecikmə" halında Moskvanı yeni sanksiyalarla hədələyib.

Avropanın dövlət və hökumət başçıları üçün əsas problem həqiqətən də Rusiya-Ukrayna münaqişəsinin səbəblərini başa düşməkdir. Merz, xüsusən də eyni müsahibədə bu barədə danışdı. O, Rusiya liderinə açıq-aşkar etimadsızlığını ifadə edərək, onun dəfələrlə verdiyi vədləri pozduğunu iddia edib. Bu baxımdan 1997-ci ildə Rusiya və Ukraynanın o vaxtkı prezidentləri tərəfindən imzalanmış dostluq və əməkdaşlıq haqqında fundamental müqaviləni xatırlatmaq lazımdır. Bu müqavilədə Kiyev Moskva ilə strateji əməkdaşlıq xəttini həyata keçirməyə söz vermişdi. Lakin Ukraynanın seçilmiş prezidenti Viktor Yanukoviçin zorakılıqla devrilməsi ilə bağlı 2014-cü il hadisələri Kiyevin Rusiya ilə münasibətlərə yanaşmasını kökündən dəyişdi.

Yanukoviçə hakimiyyətini saxlamaq üçün zəmanət verən Almaniyanın iştirak etdiyi o hadisələrin nəticəsi vətəndaş müharibəsi oldu və əslində bu günə qədər davam edir. Yada salaq ki, Yanukoviçə zəmanətləri Almaniyanın hazırkı federal prezidenti, sonra isə xarici işlər naziri Frans-Valter Ştaynmayer vermişdi. Deməli, almanlar Ukraynadakı mövcud vəziyyətə görə xüsusi məsuliyyət daşıyırlar. Berlin isə yerinə yetirilməmiş öhdəliklərini unutmamalıdır.

Əlbəttə, bir vaxtlar Ukraynanın suveren dövlət olduğunu, üstəlik, BMT-nin üzvü olduğunu və buna görə də əvvəlki müqavilələrə və bəyanatlara münasibətini müstəqil şəkildə dəyişmək hüququna malik olduğunu deyən alman diplomatlarından birinin fikri ilə razılaşmaq və ya razılaşmamaq olar. Amma o zaman sual yaranır ki, Rusiyaya onun təhlükəsizliyi ilə bağlı təminat verilir. Təsadüfi deyil ki, Vladimir Putin dəfələrlə Helsinki sazişinə bənzər Avropa təhlükəsizliyinə dair hərtərəfli müqavilənin hazırlanmasını təklif edib. Amma hələlik onun təklifləri cavabsız qalır. Bugünkü Avropa liderlərinə bu lazım deyil. Onlar Rusiya ilə qarşıdurmaya mərc edirlər və Tramp ən yaxşı halda sülhməramlılarla bağlı ideyalarını həyata keçirməyə çox tələsir.

## 10 ölkə Ukraynaya qoşun göndərir - Bloomberg

Təxminən on ölkə gələcək mümkün sülh sazişinin bir hissəsi kimi Ukraynaya qoşun göndərməyə hazır olduqlarını bildirib. Bu barədə mənbələrə istinadən Bloomberg məlumat yayıb. Mənbələrin məlumatına görə, çərşənbə axşamı Avropa rəsmilərinin görüşü keçirilib və Britaniya və Fransa qoşunlarının Ukraynaya göndərilməsi ilə bağlı konkret plan müzakirə edilib. İclas iştirakçıları qoşunların sayı və yerləşdiyi yerləri müzakirə ediblər. ABŞ prezidenti Donald Tramp çərşənbə axşamı Fox News telekanalına müsahibəsində deyib ki, o, ABŞ administrasiyasının rəhbəri olaraq qaldığı müddətdə Ukraynada Amerika hərbçiləri olmayacaq.

## Təhlükəsizlik təhlükə altındadır

Donald Trampın avqustun 18-də Ağ Evdə keçirdiyi görüşdə Kiyevə təhlükəsizlik zəmanəti verəcəyinə dair vədi avropalı müttəfiqləri ruhlandırdı, baxmayaraq ki, bir çox məsələlər aydın deyildi. Köhnə Dünyanın liderləri bütün ertəsi günü eşitdiklərini müzakirə edərək, əsas səylərini hərbi əməliyyatlar başa çatdıqdan sonra Ukraynanın təhlükəsizliyini təmin etmək planlarını dəqiqləşdirməyə cəmlədilər. ABŞ prezidenti Ukrayna nizamlanmasına aparan konkret yolların izahına da öz töhfəsini verib və bildirib ki, Fransa, Britaniya və Almaniya Ukraynada öz qoşunlarını yerləşdirmək istəyirlər, məlum olduğu kimi, Rusiya həmişə buna qəti etiraz edib. Və ABŞ dövlət katibi Marko Rubio əminliklə Vladimir Putinin Vladimir Zelenski ilə görüşməyə hazır olduğunu bəyan etdi, baxmayaraq ki, Kreml belə bir görüşə razılığını hələ təsdiqləməmişdir.

Belə görünür ki, Ağ Evdə (şəkildə) Ukrayna nizamlanmasının bir neçə saatlıq müzakirəsi Avropa liderləri üçün kifayət etməyib. Bütün ertəsi günü eyni mövzunu müzakirə etməklə keçiriblər. Tramp Ukraynanın təslim olmasını və ya dəstəyi geri çəkməsini tələb etməyib. Atmosfer müsbət idi və transatlantik alyans mövcud olmaqda davam edir. Digər tərəfdən, təhlükəsizlik zəmanətlərinin mahiyyəti və ABŞ-ın nəyi nəzərdə tutduğu ilə bağlı çoxlu qeyri-müəyyənlik var.

Avqustun 18-də isə Donald Tramp Oval kabinetdə Vladimir Zelenskini qəbul edib, sonra onun iştirakı ilə Böyük Britaniya, Fransa, İtaliya, Almaniya və Finlandiya liderləri, həmçinin Aİ və NATO liderləri ilə geniş tərkibdə uzunmüddətli danışıqlar aparıb. Görüşün əsas nəticələrindən biri ABŞ-ın Ukrayna üçün təhlükəsizlik zəmanətlərində iştirak etməyə hazır olması olub.

Lakin bu məsələ ilə bağlı bəzi təfərrüatlar ertəsi gün, çərşənbə axşamı, avqustun 19-da ortaya çıxmağa başladı. Beləliklə, məlumata görə, təhlükəsizlik zəmanətləri çərçivəsində müttəfiqlər Ukrayna ordusunu gücləndirməyi və gələcək sülh müqaviləsində onun sayı ilə bağlı heç bir məhdudiyyət nəzərdə tutmamağı planlaşdırır. Agentliyin məlumatına görə, təhlükəsizlik zəmanətləri paketi "istəyənlərin koalisiyası" tərəfindən hazırlanacaq. Eyni zamanda, "The Wall Street Journal"ın yazdığına görə, ABŞ bu prosesdə "koordinasiya" rolunu oynayacaq və Ukrayna üçün təhlükəsizlik təminatının hazırlanması üzrə işçi qrupuna ABŞ dövlət katibi Marko Rubio rəhbərlik edəcək.

Daha sonra bu məlumatı Fransa prezidenti Emmanuel Makron qismən təsdiqləyib və bildirib ki, avropalı müttəfiqlər və Vaşinqton Kiyev üçün gələcək təhlükəsizlik zəmanətlərinin Ukrayna ordusuna dəstəyi, dənizdə, havada və quruda təhlükəsizlik qüvvələrinin yaradılmasını əhatə etməsi barədə razılığa gəliblər.

Avqustun 19-da "istəklilər koalisiyası" Böyük Britaniyanın baş naziri Key Starmer və Fransa prezidentinin sədrliyi ilə zəmanətlər mövzusunda onlayn iclas keçirib. Amma onun nəticələrinə əsasən, Britaniya hökumətinin bəyanatına əsaslanaraq, yalnız razılaşmaq mümkün idi ki, yaxın günlərdə koalisiya daxilində yaradılan işçi qruplar amerikalı həmkarları ilə məsləhətləşmələr üçün görüşəcəklər. Həmin gün Ağ Evdə Ukrayna üzrə danışıqların nəticələrinin müzakirə olunduğu blok liderlərinin onlayn sammitindən sonra Avropa İttifaqı Şurasının rəhbəri Antonio Kostanın bildirdiyi kimi, Avropa İttifaqı Birləşmiş Ştatlarla birlikdə "konkret və əsaslı" təminatlar üzərində işləməyə söz verib. Eyni zamanda, Kosta görünür, vərdişindən kənarda, Aİ-yə üzv ölkələrin Ukrayna münaqişəsinin həllini yaxınlaşdırmaq üçün Rusiyaya təzyiqləri davam etdirməyə razı olduqlarını vurğulayıb.

Donald Trampın özü Fox News-a müsahibəsində çərşənbə axşamı görüşün nəticələrinə dair şərhini açıqlayıb. Onun sözlərinə görə, Fransa, Böyük Britaniya və Almaniya öz qoşunlarını Ukraynada yerləşdirmək istəyirlər (baxmayaraq ki, bir gün əvvəl NATO-nun baş katibi Mark Rutte orada xarici qoşunların hərbi mövcudluğundan söhbət getmir). Üstəlik, Donald Tramp deyib ki, Birləşmiş Ştatlar Avropaya qoşun yeritmək, o cümlədən hava dəstəyi ilə kömək edə bilər, lakin Ukraynada Amerika hərbçiləri olmayacaq - "nə qədər ki, mən ABŞ prezidenti olaraq qalıram".

Rusiyada xatırlayırıq ki, Ukrayna ərazisində xarici qoşunların olması qəbuledilməz adlandırılır. Və indiyədək Moskvadan mövqe dəyişikliyinə dair zərrə qədər işarə eşidilməyib. Sonra Amerika prezidenti artıq bir neçə dəfə dediyini xatırladıb - "həm Krımı Ukraynaya qaytarmaq, həm də Kiyevin NATO-ya qoşulması mümkün deyil". O, Ağ Evdə keçirilən görüşdə Avropa liderlərinin Ukraynanın ərazi güzəştlərinin zəruriliyini başa düşdüklərini bəyan edib. Lakin o, daha sonra bunun nə demək olduğunu izah etmədən "Ukraynanın çoxlu torpaq alacağına" əmin olduğunu bildirib.

Bu arada Rusiya hələ ki, Vladimir Putinin Vladimir Zelenski ilə təkbətək görüşə hazır olduğunu təsdiqləməyib. Rusiya prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov yalnız qeyd edib ki, son söhbət zamanı Rusiya və ABŞ prezidentləri Rusiya və Ukrayna nümayəndə heyətləri arasında birbaşa danışıqların aparılmasını dəstəklədiklərini bildiriblər və nümayəndə heyətlərinin rütbəsini və səviyyəsini yüksəltmək barədə razılığa gəliblər.

## Ukrayna prezidentinin mövqeyi necə dəyişdi?

Buna baxmayaraq, rusiyalı həmkarı ilə söhbəti zamanı Amerika liderinin kabinetində olan ABŞ dövlət katibi Marko Rubio "Fox News" telekanalına müsahibəsində Rusiya prezidentinin Zelenski ilə görüşə razılığının gerçəkləşdiyini bildirib. "Putinin "Əlbəttə, Zelenski ilə görüşəcəm" deməsinin özü artıq böyük əhəmiyyət kəsb edir. Onların danışıqlardan ən yaxşı dost kimi çıxacağını və ya sülh sazişi bağlayacağını gözləmirəm. Amma indi münaqişə tərəfləri bir-biri ilə danışır - bu, üç il yarımdır ki, baş vermir", - diplomat qeyd edib.

Çərşənbə axşamı Avropa liderləri də Rusiya və Ukrayna prezidentləri arasında mümkün görüşün yerini fəal müzakirə edirdilər. Məsələn, İsveçrənin xarici işlər naziri İqnazio Kassis artıq Beynəlxalq Cinayət Məhkəməsinin orderi altında olan Vladimir Putinə Ukrayna ilə bağlı görüş üçün Cenevrəyə uçacağı təqdirdə ona toxunulmazlıq vəd edib. Emmanuel Makron daha əvvəl bu İsveçrə şəhərini Rusiya və Ukrayna prezidentlərinin görüşü və ondan sonra üçtərəfli sammitin keçiriləcəyi məkana çevirməyi təklif etmişdi. Sky News-un məlumatına görə, İtaliyanın baş naziri Giorgia Meloni Romada üçtərəfli sammitin təşkil edilməsinin tərəfdarı olduğunu bildirib və bu görüşdə artıq Tramp və Zelenski tərəfindən dəstəkləndiyi iddia edilir. Və çərşənbə axşamı axşam AFP mənbəsi Vladimir Putinin ABŞ prezidenti ilə telefon danışığında Zelenski ilə Moskvada görüşməyi təklif etdiyini bildirib. Lakin eyni agentliyin başqa bir xəbərinə görə, Zelenski bu təklifdən imtina edib.

**V.VƏLİYEV**

# Rusiya baş nazirinin müavini:
## “Moskva Zəngəzur dəhlizinin açılmasını dəstəkləyir”

***Rusiya baş nazirinin müavini Aleksey Overçuk jurnalistlərə bildirib ki, yaxın günlərdə Azərbaycan tərəfi ilə Azərbaycan, Ermənistan və ABŞ liderləri arasında avqustun 8-də Vaşinqton razılaşmalarından sonra Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının blokunun açılması məsələlərini müzakirə edəcək.***

”Bir neçə gün sonra mənim Azərbaycan tərəfi ilə də görüşməyim nəzərdə tutulub. Biz orada bu məsələlərə (Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması) də baxacağıq. Beləliklə, bu istiqamətdə irəliləyiş gedir”, - Overçuk Avrasiya İqtisadi İttifaqının Qırğızıstanda keçirilən hökumətlərarası iclası çərçivəsində deyib. O.Overçuk Azərbaycan tərəfi ilə görüşün yeri ilə bağlı suala ”Görüş Rusiyada olacaq” cavabını verib.






Baş nazirin müavini xatırladıb ki, Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində Rusiya, Azərbaycan və Ermənistan rəhbərləri tərəfindən imzalanmış 9-10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyannamənin 9-cu bəndinin icrası çərçivəsində Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında nəqliyyat kommunikasiyalarının blokunun açılması məsələsini müzakirə etmək üçün yaradılmış üçtərəfli işçi qrupu mövcuddur. Overçuk qeyd edib ki, işçi qrupu çərçivəsində tərəflər blokun açılmasının bütün nüanslarını ətraflı müzakirə ediblər.

”Ona görə də, əlbəttə ki, biz maraqlıyıq ki, tərəflər (Azərbaycan və Ermənistan) üçtərəfli işçi qrupu çərçivəsində müzakirə olunan problemlərin həllində nə qədər irəliləyiblər. Bəzi nüanslar Rusiya Federasiyasının Cənubi Qafqazdakı maraqlarına təsir edir, ilk növbədə, dəmir yolu kommunikasiyalarının inkişafı baxımından biz bu məsələnin həllində maraqlıyıq-” Overçuk vurğulayıb.

”O zaman, əlbəttə ki, bizə lazım olacaq ki, əgər bütün bu məsələlər həll olunubsa, onda biz bunu hesablamaların texniki-iqtisadi əsaslandırılması müstəvisinə çevirməli, bu layihələrin iqtisadiyyatına nəzər salmalı və blokun açılması ilə məşğul olmalıyıq. Amma yenə də, bu, Azərbaycan və Ermənistanla, təbii ki, üçtərəfli əməkdaşlıq çərçivəsində və qarşılıqlı səylərimizi tələb edəcək ”,- deyə Overçuk qeyd edib.

Bundan əlavə, Overçuk bildirib ki, bu həftə Ermənistanın Avrasiya İqtisadi İttifaqında (AİI) fəaliyyətini müzakirə etmək üçün İrəvana gedəcək.

”Bir neçə gün sonra mən İrəvana uçuram. Səfərin özü əvvəlcədən planlaşdırılıb, bu, Ermənistan Respublikasının hüquqi bazasında, fikrimizcə, Avrasiya İqtisadi İttifaqının qanunvericiliyinə zidd olan normativ hüquqi aktın, Ermənistan hökumətinin fərmanının meydana çıxması ilə bağlıdır”- baş nazirin müavini jurnalistlərə deyib.

Overçukun sözlərinə görə, bu məsələ qarşıdakı səfər zamanı müzakirə olunacaq. ”Sonra Vaşinqtonda görüş oldu, bəyannamə imzalandı. Ona görə də ehtimal olunur ki, Ermənistanın baş naziri Nikol Paşinyanla görüş olacaq və biz burada ilk növbədə Cənubi Qafqaz regionunda kommunikasiyaların blokunun açılması ilə bağlı müəyyən nüansları müzakirə edəcəyik”, - o əlavə edib. Baş nazirin müavini izah edib ki, Rusiya Cənubi Qafqazdakı maraqları ilə bağlı məsələlərdə, o cümlədən dəmir yolu əlaqələrinin inkişafında maraqlıdır.

Bu arada baş nazirin müavini bildirib ki, Rusiya Azərbaycanla Ermənistan arasında nəqliyyat dəhlizi yaratmaq planlarını dəstəkləyir. ”Biz bu müstəvidə bu məsələni nəzərdən keçiririk. Ermənistan bizim strateji müttəfiqimizdir və əgər Ermənistan nəyinsə onlar üçün xeyirli olduğuna inanırsa, təbii ki, biz burada Ermənistanı dəstəkləyirik”, - deyə o, müvafiq sualı cavablandırıb.

”Əgər onlar hesab edirlər ki, Vaşinqtonda müvafiq bəyannamənin imzalanması daha böyük təhlükəsizlik təminatları verir, bu, yaxşıdır, çünki biz Cənubi Qafqazda sülh proseslərini də dəstəkləyirik”, - Overçuk əlavə edib. Onun sözlərinə görə, bu, Rusiya Federasiyasının maraqlarına tamamilə cavab verir.

***Elçin***

*PSİXOLOQ İZAH ETDİ*

# “Uşaqların oyun seçimləri onların psixologiyasına təsir edir”

“Ümumiyyətlə, uşaq oyunlarının bir çoxu aqressiv xarakter daşıyır. Son zamanlar müşahidə etdiyimiz kimi, uşaqların oynadığı bəzi oyunlarda - el arasında deyildiyi kimi - vurub-yıxma, kəsib-tökmə, adam öldürmə, baş kəsmə, adam yaralama kimi hallar adi hal alıb”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gülər Məmmədova deyib.

Onun sözlərinə görə, bütün uşaqlar bu cür oyunlardan böyük həzz alır və özlərini həmin rollarda təsəvvür edirlər: ”Bildiyimiz kimi, hər bir uşağın özünü təsdiq etmə dönəmi olur. Bu dönəm uşaqlarda müəyyən mərhələlərdən keçir və həm sosial, həm təhsil, həm də davranış sferasında özünü göstərir. Uşaq ətrafdakı uşaqlarla münasibətində, qorxma və ya qorxu







yaratma hallarında, söz deyərkən ya da eşidərkən təzyiqdən çəkinmə kimi reaksiyalarla müşahidə olunur.

Bəzi uşaqlar ümumiyyətlə sözlü münaqişələrə girmir, fiziki təzyiq qarşısında aciz qalır, fikirlərini ifadə edə bilmir. Bu da göstərir ki, hələ uşaq yaşlarından hər kəsdə özünəməxsus xarakter formalaşır. Əgər uşaq həyatda özünü təsdiq edə bilmirsə, bu ehtiyacını oyunlarda təmin etməyə çalışır. Bu səbəbdən də oyunlarda uduzduqda çox gərgin, aqressiv və impulsiv olurlar. Bu, yaşdan asılı bir prosesdir. Lakin məktəbəqədər dövrü çıxmaq şərti ilə, bu hal ibtidai sinif dövründə geniş yayılırsa, artıq valideynin narahat olmalı vaxtıdır. Çünki bu, passiv aqressiyanın təməlidir və erkən dövrdən formalaşmağa başlayır. Valideynlər, əgər uşağın sakitcə telefonla məşğul olduğunu görürlərsə, bu, onun aqressiyasının və narahatlığının olmadığı anlamına gəlməz. Uşaq bunu sadəcə passiv formada göstərə bilər və valideyn bunun fərqində olmaya bilər.

Valideynlər mütləq şəkildə uşağın oynadığı oyunların formatına baxmalıdır. Çünki bu oyunlar bir insanın psixologiyasına ciddi ziyan vura bilər. Qələbə həyəcanı, udmaq istəyi, qarşı tərəfə qalib gəlmək üçün yaşanan gərginlik - bunlar insanın gündəlik emosional balansına ciddi təsir edir. Əgər bir uşağın gündəlik fəaliyyəti yalnız bu cür oyunlar üzərində qurulursa, bu, onun psixologiyasında ciddi pozuntulara gətirib çıxarır.

Uşağın psixoloji inkişaf dövründə həddindən artıq təşviş, aqressiya, gərginlik formalaşmaması üçün valideyn erkən müdaxilə etməlidir. Çünki yeniyetmə dövründə müdaxilə etmək artıq çox çətin olur. Valideynlər uşaqlarının hansı oyunları oynadığına, hansı oyunlardan zövq aldığına diqqət yetirməli, bu yolla uşağın xarakterində formalaşmaqda olan diqqət əskikliyi, qavrama pozuntusu, tez qıcıqlanma, əsəbilik və ümumilikdə nevrotik pozuntuların qarşısını ala bilərlər”.

***Günel Fərzəliyeva***

# Fəaliyyətsiz mexanizm tarixin arxivinə göndərilir

## Artıq heç bir dövlət və ya təşkilat Azərbaycana qarşı təzyiq aləti kimi Minsk qrupunun adından istifadə edə bilməyəcək

***Azərbaycanın ən yeni tarixi mərhələsinə daxil olduğu bir dövrdə beynəlxalq münasibətlər sistemində mühüm hadisə baş verdi. Avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampın iştirakı ilə keçirdiyi görüş yalnız region üçün deyil, bütövlükdə beynəlxalq hüququn işləkliyi baxımından dönüş nöqtəsi kimi yadda qaldı. Bu görüşdə uzun illərdir süni şəkildə saxlanılan və fəaliyyətsizliyi ilə yadda qalan ATƏT-in Minsk qrupu və onunla əlaqədar strukturların buraxılması barədə qərar qəbul olundu. Beləliklə, artıq 30 ildən çox müddət ərzində işğal faktını leqallaşdırmağa xidmət edən, ikili standartların aləti kimi çıxış edən bir mexanizmin siyasi ömrü başa çatdı.***



Minsk qrupunun tarixi əslində Qarabağ münaqişəsinin tarixindən ayrı deyil. 1992-ci ildə yaradılan bu mexanizm guya münaqişəyə sülh yolu ilə son qoymaq üçün nəzərdə tutulmuşdu. Amma onun fəaliyyəti illər keçdikcə açıq şəkildə göstərdi ki, əslində məqsəd işğal faktını uzatmaq, Ermənistanın təcavüzünü gizlətmək və regionu nəzarətdə saxlamaqdan ibarət olub. ABŞ, Fransa və Rusiyanın həmsədrliyi ilə fəaliyyət göstərən bu qrup Azərbaycan torpaqlarının işğaldan azad olunması istiqamətində bir addım belə atmadı. Əksinə, Ermənistanın təcavüzkar siyasətini müdafiə edərək qeyri-obyektiv mövqe sərgiləməklə prosesləri dondurdu. Azərbaycanın ərazi bütövlüyünü birmənalı tanıyan BMT qətnamələrini icra etdirmək əvəzinə, Minsk qrupu faktiki olaraq status-kvonun qorunmasına çalışdı.






Bu mənada 8 avqust Vaşinqton görüşündə qəbul edilən qərar yalnız bir diplomatik protokol məsələ deyil, tarixi ədalətin bərpası və regionda yeni siyasi reallığın təsdiqi oldu. Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanmaqla artıq hərbi-siyasi reallığı formalaşdırmışdı. Ermənistana vurulan ağır zərbə, işğalın sona çatdırılması, üçtərəfli bəyanatın imzalanması, ardınca Azərbaycan dövlətinin azad olunmuş ərazilərdə sürətli bərpa prosesinə başlaması göstərdi ki, Minsk qrupu artıq heç bir əhəmiyyət daşımır. Bununla belə, beynəlxalq hüquqi və siyasi sistemdə formal olaraq bu qurumun adının qalması Azərbaycanın mövqeyinə uyğun deyildi. Vaşinqton görüşü məhz bu məsələni birdəfəlik həll etdi.




Minsk qrupunun buraxılması ilə Azərbaycan beynəlxalq aləmdə bir daha göstərdi ki, regionun gələcəyini öz iradəsi ilə müəyyənləşdirir. Bu qərarın həm də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə qəbul olunması simvolik əhəmiyyət daşıyır. Çünki Vaşinqton uzun illər bu qrupun həmsədrlərindən biri olub və indi məhz ABŞ-ın siyasi dəstəyi ilə onun fəaliyyətinə son qoyulması göstərir ki, Azərbaycanın mövqeyi beynəlxalq miqyasda tanınır və qəbul edilir. Bu, həm də Qərb və ABŞ siyasətində Cənubi Qafqaza baxışın dəyişməsinin bariz göstəricisidir.

Azərbaycan diplomatiyası həmişə bəyan edirdi ki, Minsk qrupu öz missiyasını itirib. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, artıq Qarabağ münaqişəsi yoxdur, məsələ hərbi-siyasi yolla həll olunub və yeni reallıqla barışmaq lazımdır. Ermənistan tərəfi isə uzun müddət bu qrupun mövcudluğunda maraqlı idi. Çünki bu qurumun saxlanması onlara yeni manevr imkanları verir, status məsələsini gündəmdə saxlamağa şərait yaradırdı. Ancaq Vaşinqton görüşü bu planları alt-üst etdi. Ermənistan rəhbərliyi Azərbaycanın və beynəlxalq ictimaiyyətin iradəsi qarşısında geri çəkilməyə məcbur qaldı.

Bu qərarın qəbul olunması eyni zamanda, beynəlxalq təşkilatların fəaliyyətinə də ciddi mesaj verdi. Çünki Minsk qrupu nümunəsi göstərdi ki, ədaləti bərpa etmək əvəzinə işğalçı dövlətin maraqlarına xidmət edən mexanizmlər tarix səhnəsindən silinməyə məhkumdur. Azərbaycanın siyasi iradəsi, beynəlxalq müstəvidə artan nüfuzu, tərəfdaşlıq əlaqələrinin güclənməsi bu prosesin sonunu yaxınlaşdırdı. Artıq heç bir dövlət və ya təşkilat Azərbaycana qarşı təzyiq aləti kimi Minsk qrupunun adından istifadə edə bilməyəcək.

